QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 188 (5908) **12 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib"

*Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edib*




Səh 2

3

"Türkiyənin həyata keçirdiyi əməliyyat mövcud problemin ən rasional həlli variantıdır"



6

Yeni Azərbaycan Partiyasında "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayiş olunub



8

"Qaregin Njdeyə bəraət qazandırmağa çalışan Paşinyanı siyasi həyasızlıq etalonu adlandırmaq olar"



# “Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib”

## *Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edib*

**Oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət başçılarını salamladı.**

Sonra birgə foto çəkdirildi. MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasını açan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iclasın işinə uğurlar arzuladı. Daha sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın iclasının gündəliyi barədə məlumat verdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Sağ olun, hörmətli cənab Prezident.

Hörmətli dövlət başçıları.

Səmimi qəbula və qonaqpərvərliyə görə Prezident Berdiməhəmmədova təşəkkürümü bildirmək istəyirəm.

Bizim dünənki görüşümüz Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. Mən Türkmənistana keçənilki rəsmi səfərimi də səmimiyyətlə xatırlayıram. Həmin səfər müddətində mühüm məsələlərə dair geniş fikir mübadiləsi aparıldı, bizim münasibətlərimizə yeni məzmun gətirən rekord sayda, daha dəqiq desək, 21 sənəd imzalandı. Ölkənin inkişafı, Aşqabadın abadlaşdırılması işində Türkmənistan Prezidentinin şəxsi rolunu da qeyd etmək istərdim. Burada tez-tez oluram, aşkar dəyişiklikləri, sürətli inkişafı, müasir infrastrukturu görürəm. Keçən dəfə Olimpiya şəhərciyi ilə tanış oldum. Bütün bunlar göz oxşayır, vətəndaşların idmanla məşğul olmaları və ölkənin inkişafı işinə fəal töhfə vermələri üçün yaxşı imkan yaradır. Genişmiqyaslı tikinti işləri də heyranlıq doğurur. Mən bilirəm ki, Prezident hər bir layihəyə şəxsən nəzarət edir, buna görə də şəhər inkişaf edir, nadir vahid şəhərsalma ansamblı yaradılıb.




> *“Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı”*



Bugünkü Zirvə Görüşünün gündəliyindəki məsələlərdən biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətidir. Ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində “Xəzər dənizi” sözləri yazılmış bir oyuq, həmin oyuqda “Bakı” adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb “Bakı” sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni, bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı.

Azərbaycan elminin nümayəndələri ümumi qələbəmizə sanballı töhfə veriblər. Məsələn, böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan “Molotov kokteyli” kimi məşhurlaşmış yandırıcı maye ixtira etmişdi. Bu barədə çox adam bilmir, lakin bu, həqiqətdir. Bakının zavodlarında gecə-gündüz istehsal edilən məşhur “Katyuşa” raketləri və digər silahlar düşməni dəhşətə salmışdı. Müharibədə həlak olanların xatirəsini Azərbaycanda ehtiramla yad edir, müharibə veteranlarına böyük qayğı göstərirlər. Oyuncaq, satqın, xalqa zidd, biabırçı Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu 1992-1993-cü illərdə 9 May bayramı ləğv edilmişdi, müharibə veteranları isə alçaldılmağa və təhqirlərə məruz qalırdılar. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun ilk qərarlarından biri 9 May - Qələbə Gününün bərpa edilməsi oldu. O vaxtdan təqvimdə qırmızı rənglə qeyd olunan bu gün qeyri-iş günüdür və milli bayram kimi qeyd edilir.

Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim edib. Həmin məruzədə deyilir: “Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”. Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.

Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik “1941-1945-ci illərin Böyük Vətən müharibəsi” ensiklopediyasının “Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat” adlı VI cildində dərc edilmiş “Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti” adlı məqalədə deyilir: “Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: “Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur”. Burada şərhə ehtiyac yoxdur. Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur. Diqqətinizə görə təşəkkür edirəm.

Sonra digər dövlət başçıları çıxış etdilər.

# Aşqabadda MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib





**Oktyabrın 11-də Aşqabadda məhdud tərkibdə iclas başa çatandan sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedevə Türkmənistanın "Bitərəflik" ordenini təqdim etdi.**

Azərbaycanın Rusiyadakı səfiri, MDB-yə üzv dövlətlərin Humanitar Əməkdaşlıq üzrə Hökumətlərarası Fondunun idarə heyətinin sədri Polad Bülbüloğlu Fondun "Humanitar əməkdaşlığın inkişafında xidmətlərinə görə" medalını Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim etdi. İclasda bir sıra sənədlər, o cümlədən "Strateji iqtisadi əməkdaşlıq haqqında" bəyannamə imzalandı.

Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak etdi. Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri başa çatdı.

## Fransa və Azərbaycan prezidentləri arasında telefon danışığı olub



Oktyabrın 10-da Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Fransa Prezidenti onun təşəbbüsü ilə yaradılan QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fonda Azərbaycan tərəfinin dəstək verməsini Azərbaycan Respublikası Prezidentindən xahiş edib.

Prezident İlham Əliyev Fransa Prezidentinin bu təşəbbüsünə öz dəstəyini ifadə edib və Azərbaycan tərəfinin bu xəstəliklərlə mübarizə işinə əhəmiyyətli töhfə verməyə hazır olduğunu bildirib. Fransa Prezidenti dəstəyə görə minnətdarlığını bildirib və Fondun bu günlərdə Lionda keçiriləcək konfransında Azərbaycanın dəstəyinin vurğulanacağını qeyd edib. Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətlərin inkişafı və iki ölkənin prezidentləri arasında gələcək təmaslarla bağlı məsələləri müzakirə ediblər.

# Əli Həsənov: "Türkiyənin həyata keçirdiyi əməliyyat mövcud problemin ən rasional həlli variantıdır"

Azərbaycan və Türkiyə iki dost, qardaş və strateji tərəfdaş ölkə kimi həmişə bir-birinə dəstək olub, mühüm beynəlxalq və regional əhəmiyyət kəsb edən məsələlərə ortaq mövqedən yanaşıblar. Biz həmişə bir-birimizin uğuruna sevindiyimiz kimi, çətin anlarda da bir yerdə olmuşuq, bacardığımız köməyi əsirgəməmişik. Azərbaycan həmişə Türkiyənin öz milli-strateji maraqları çərçivəsində həyata keçirdiyi siyasəti dəstəkləyib, habelə dost və qardaş ölkənin beynəlxalq terrorizmlə mübarizə sahəsində göstərdiyi səyləri yüksək qiymətləndirib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.

Statusda deyilir: "Hazırda Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Sülhün mənbəyi" əməliyyatı ciddi silahlı qarşıdurma müşahidə olunan Suriya ilə həmsərhəd ərazilərdə terror riskinin minimuma endirilməsi, bu ölkədən milyonlarla qaçqının təhlükəsizliyinin təmin edilməsi, onların üzləşdiyi humanitar problemlərin aradan qaldırılması və sabitliyin təmin olunması üçün digər məsələlərin həlli məqsədini daşıyır.



Məlumdur ki, Suriyada münaqişə başlayan dövrdən bu ölkə ilə həmsərhəd olan Türkiyə ciddi qaçqın axını ilə üzləşib. Artıq qardaş ölkədə məskunlaşmış suriyalıların sayı milyonlarla ölçülür. Təəssüf ki, rəsmi Ankara tərəfindən dəfələrlə, təkidlə qaldırılmasına baxmayaraq, beynəlxalq birlik bu problemin həllinə dəstək göstərməyib. Hesab edirik ki, belə olan təqdirdə Suriya ərazisində təhlükəsiz zonanın yaradılması və qaçqınların həmin ərazilərdə, öz doğma torpaqlarında məskunlaşdırılması məqsədilə həyata keçirilən əməliyyat mövcud problemin ən rasional həlli variantıdır.

Digər tərəfdən, Türkiyənin öz sərhədləri yaxınlığına, terror qruplarının nəzarəti altında olan Suriya ərazilərində keçirdiyi hərbi əməliyyat BMT Nizamnaməsinə, BMT-nin "Beynəlxalq terrorizmin ləğv edilməsi tədbirləri haqqında" Bəyannaməsinə, "Terrorizmin qarşısının alınması haqqında" Avropa Konvensiyasına və digər beynəlxalq qanunvericilik aktlarına söykənir. Qeyd olunan sənədlər terror təhlükəsinə məruz qalan bu və ya digər dövlətin təkcə öz ərazisində deyil, terror təhlükəsinin mənbəyi olan başqa dövlətlərin ərazilərində də beynəlxalq birliyi xəbərdar etməklə antiterror əməliyyatlarının keçirilməsinə əsas verir.

Azərbaycan uzun illərdir ki, aqressiv separatizmdən və terrorizmdən əziyyət çəkən bir ölkə kimi Türkiyənin qarşılaşdığı problemləri kifayət qədər yaxşı başa düşür. Bu gün işğal altında olan Azərbaycan əraziləri beynəlxalq terror qruplarının təlim bazası funksiyasını yerinə yetirir. Rəsmi Bakı bununla bağlı dəfələrlə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırıb. Türkiyənin Suriya ərazisində həyata keçirdiyi antiterror əməliyyatları bir daha sübuta yetirir ki, terrorizmə qarşı ikili standartlar yolverilməzdir və son nəticədə onun daha qlobal miqyasda çiçəklənməsinə zəmin yaradır. Şübhə etmirik ki, Azərbaycan da işğalçı hərbi birləşmələrin, terror qruplarının nəzarəti altında olan ərazilərində antiterror əməliyyatı aparacaq və Türkiyə də beynəlxalq terrorizmə qarşı mübarizənin ön sıralarında yer alan bir dövlət kimi bu prosesə öz töhfəsini verəcək. Bu yolda həm qardaş Türkiyəyə, həm də Azərbaycanımıza uğurlar diləyirik".

# Dövlət siyasətində xalq-iqtidar vəhdəti

## *Prezident İlham Əliyev: "Mən xalqın dəstəyinə arxalanıram, xalqa güvənirəm"*

***Ölkə Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu son 16 il müddətində daima xalqla birbaşa təmasda olub. İstər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə Prezident İlham Əliyev sadə vətəndaşlara söykənir: "Mən bütün azərbaycanlıların prezidentiyəm" şüarını gerçəyə çevirir. Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Çünki Cənab İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub.***



### Əsl siyasət konkret real iş görməkdən ibarətdir

Bəli, bu, həqiqətən də, belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Onu da, vurğulamaq lazımdır ki, 16 il ərzində, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

### "İndi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir"

Bu yerdə Prezident İlham Əliyev bu günlərdə Bakının Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlığı zamanı sakinlərlə görüşündə bir daha xalqına arxalandığını və güvəndiyini vurğulaması deyilənlərin real sübutudur.



Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, paytaxtımızda icra olunan layihələr nəticəsində, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Paytaxt Bakı gündən-günə abadlaşır, müasirləşir və yenilənir. Bu baxımdan, yeni park və xiyabanların salınması, mövcudlarının yenidən qurulması, sosial obyektlərin inşası, istimai yerlərin istifadəyə verilməsi xüsusi rol oynayır. Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkın əsaslı şəkildə yenidən qurulması da mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva parkda sakinlərlə görüşü zamanı bildirib ki, indi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir: "Baxın, son illərdə şəhərimizdə nə qədər park salınıb. İlk növbədə, bizim ən böyük parkımız bulvardır. Əvvəllər bulvarın uzunluğu 3 kilometr idi, indi 15 kilometrdir. Hər tərəf yaşıllıq, hər tərəf gözəl, hər tərəf abad. Heydər Əliyev Mərkəzinin və Konqres Mərkəzinin ətrafında 20 hektarı əhatə edən böyük bir park var. İndi uşaqlar və yaşlı nəsil orada istirahət edir. Yusif Səfərov küçəsindəki park. Orada da yöndəmsiz binalar var idi, infrastruktur dağılmışdı. Orada da park salındı. Yəni bu abadlıq-quruculuq işləri vətəndaşlar üçündür. Çünki vətəndaşlar ictimai yerlərdən istifadə etməlidirlər. Bu parkda da çox gözəl şərait yaradılıb.

Bakı şəhərinin problemlərinin həlli istiqamətində böyük işlər görülür. Bilirsiniz ki, bu yaxınlarda metronun "Koroğlu" stansiyasının yanında yeni Nəqliyyat-Mübadilə Mərkəzinin açılışını qeyd etdik. Yeni avtobuslar gətirilir. Bu il 300 avtobus gətirilib, əvvəlki dövrlərdə gətirilib. Gələn il də, ən azı, 300 müasir avtobus gətiriləcək. Bakı o şəhərlərdəndir ki, metro tikintisi gedir. Deyə bilərəm ki, MDB məkanında yalnız Rusiyada və Azərbaycanda metro tikintisi davam etdirilir. Bu il 30 yeni vaqon gətirilib. Bu vaqonlarda həm kondisioner, həm də gözəl şərait var. Bütün bunlar vətəndaşların rahatlığı üçün edilir".

### "Mənə də güc verən vətəndaşların dəstəyidir. Mən bu dəstəyə arxalanıram, güvənirəm"

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri, bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm və söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ulu Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı, bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

Görüş zamanı Prezident İlham Əliyev bildirib ki, belə də olmalıdır: "Mənə də güc verən vətəndaşların dəstəyidir. Mən bu dəstəyə arxalanıram, güvənirəm. Bu, mənə güc verir".

### "Azərbaycan dünya miqyasında sabitlik məkanıdır, inkişaf diyarıdır"

Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib. Prezident İlham Əliyev görüş zamanı ölkəmizdə ictimai-siyasi sabitliyin vacib olduğunu da vurğulayıb: "Bu gün Azərbaycan dünya miqyasında sabitlik məkanıdır, inkişaf diyarıdır. Bundan sonra da, biz ancaq yüksələn xətlə inkişaf edəcəyik, buna heç kimin şübhəsi olmasın". Bəli, bu, həqiqətən də, belədir! Bu gün Cənab Prezidentin, hər zaman olduğu kimi, sözü ilə əməli tam üst-üstə düşür. Və ölkə Parezidenti İlham Əliyev Cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq, fəxr edə bilər".

Məhz xalqımız öz LİDERİNƏ arxalandığı üçün, öz Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisinə doğru inamla irəliləyir.

**RƏFİQƏ KAMALQIZI**

# MSK-da dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib



***Mərkəzi Seçki Komissiyasının (MSK) dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilib. SİA-nın verdiyi məlumata görə, Azərbaycan Respublikasının Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na əsasən Mərkəzi Seçki Komissiyası (MSK) cari ildə ilk maarifləndirmə layihəsinə start verib.***

Aşağı seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənməklə bütün respublikanı əhatə edən irimiqyaslı layihənin birinci mərhələsi çərçivəsində 2019-cu il oktyabrın 11-də Bakı şəhərində MSK-nın inzibati binasında ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib. SİA xəbər verir ki, müşavirədə açılış nitqi ilə çıxış edən MSK-nın sədri Məzahir Pənahov deyib ki, müstəqil Azərbaycan müxtəlif sahələrdə olduğu kimi, seçkilər sferasında da ciddi irəliləyişlər əldə edilib. Azərbaycanın seçki təcrübəsini dünyaya nümunə göstərmək olar.

Sədr qeyd edib ki, müxtəlif dövrlərdə seçki prosesinə müdaxilələrlə bağlı müəyyən cəhdlər olsa da, dövlətimizin başçısının ortaya qoyduğu mövqe ilə bu cəhdlərin qarşısı alınıb və şəffaf seçkilərin keçirilməsinə nail olunub. Mərkəzi Seçki Komissiyası müxtəlif dövlət qurumları ilə sıx əlaqələr saxlayır. Bu isə şəffaf seçkilərin keçirilməsinə zəmin yaradır. Bütün bölgələrdə məntəqə seçki komissiyaları üçün əlverişli iş şəraiti yaradılıb. Azərbaycanda bu il dekabrın 27-də keçiriləcək bələdiyyə seçkilərində səsvermə prosesini izləmək üçün beynəlxalq təşkilatların nümayəndələri də dəvət ediləcək. Bələdiyyə seçkilərində beynəlxalq müşahidəçilərin sayı az olur. Bu seçkilərə Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin nümayəndələri dəvət ediləcək. Hesab edirəm ki, müşahidəçilər baxımından problem olmayacaq. Biz çalışacağıq ki, seçkilərdə maksimum dərəcədə beynəlxalq müşahidəçilər olsun. Çünki biz seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsində maraqlıyıq. Mərkəzi Seçki Komissiyası seçkilərə hazırlıq işlərini yekunlaşdırır. Yaxın günlərdə seçkiləri rəsmi şəkildə elan edəcəyik.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyev çıxış edərək deyib ki, bu gün Azərbaycanda seçkilərə rəhbərlik edən şəxslərin peşəkarlığı yüksək səviyyədədir: "Bu, seçkiləri izləyən xarici müşahidəçilərin də hesabatlarında öz əksini tapır. Zeynal Nağdəliyev qeyd edib ki, Prezident İlham Əliyevin yorulmaz əməyi nəticəsində indiki seçkilər əvvəlkilərə nisbətən xeyli təkmilləşib və bunu qiymətləndirmək lazımdır. Ölkəmizdəki siyasi sabitlik seçkilərin şəffaf keçirilməsi üçün münbit şərait yaradır. İndiyədək Azərbaycanda dörd bələdiyyə seçkiləri keçirilib. Qarşıda isə bizi beşinci seçkilər gözləyir".

Prezidentin köməkçisi deyib ki, vətəndaşlarımızın yerli idarəetmə orqanlarına marağı gündən-günə artır. Seçkilərə ali təhsilli namizədlərin sayı artır. Əminik ki, növbəti bələdiyyə seçkiləri də şəffaf, qanunauyğun şəkildə keçiriləcək: "Çatışmazlıqlar vaxtında aradan qaldırılacaq. Ölkəmizdə təşviqat işinin düzgün aparılması üçün bütün şərait yaradılıb. Azərbaycanda seçki sistemi təkmilləşdirilib, insanların seçkiyə marağı artıb. Seçkiləri izləyən müşahidəçilərin iradlarının sayı azalmaqdadır. Bu, onu göstərir ki, seçki sistemi sürətlə təkmilləşdirilir. Bunun da səbəbi ölkədəki siyasi sabitlikdir, Prezident İlham Əliyevin nüfuzudur. Azərbaycandakı seçki sistemi dünya üçün nümunədir. İnsanlar yaranmış bu şəraiti dəyərləndirir, seçkidə fəallıq göstərirlər".

Milli Məclisin Regional məsələlər Komitəsinin sədri Arif Rəhimzadə isə qeyd edib ki, bələdiyyələrin hüquqi bazası tamamlanıb: "Bələdiyyələrin fəaliyyətində qarşıya çıxan problemlər isə aradan qaldırılır. Komitə sədri bildirib ki, qısa müddət ərzində bələdiyyələr böyük yol keçiblər. Hər bir vətəndaş bələdiyyələrin fəaliyyətində iştirak etməlidirlər. Lakin bələdiyyə ödənişlərinin yığılması ilə bağlı məsələ heç də ürəkaçan deyil. Azərbaycan dövləti tərəfindən bu problemi aradan qaldırmaq üçün əməli addımlar atılır".



Baş prokurorun birinci müavini Rüstəm Usubov çıxış edərək bildirib ki, bələdiyyə seçkiləri respublikamız üçün çox əhəmiyyətli hadisədir: "Hər birimiz bu prosesdə iştirak etməliyik. Şəffaf seçkilər ölkəmizdə demokratiyanın göstəricisidir. Rüstəm Usubov qeyd edib ki, son dövrlərdə bələdiyyələrin statusunda ciddi dəyişikliklər edilib və onlara əlavə statuslar verilib. Bu isə bələdiyyələrin işinə müsbət təsir göstərir. Prokurorluq orqanları seçki prosesinə xüsusi həssaslıqla yanaşır. Azərbaycan prokurorluğu bu məsələdə Mərkəzi Seçki Komissiyası ilə sıx əlaqədə çalışır. Daxil olan şikayətlərə ciddi şəkildə baxılır, məsələ ətraflı araşdırılır. Həmişə olduğu kimi, seçki qanunvericiliyini qorumalıyıq. İnanıram ki, bu seçkini də birgə yüksək səviyyədə keçirəcəyik. Cəmiyyətin tərəqqi və inkişaf yolu demokratik seçkilərdən keçir. Seçkilər mühüm əhəmiyyətli siyasi tədbir olaraq ölkədə demokratiyanın başlıca göstəricisi və xalqın iradəsinin qanuni formasının ifadəsidir".

Baş prokurorun birinci müavini bildirib ki, seçki prosesinə müdaxilə edən şəxslər Cinayət və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər.

Daxili İşlər nazirinin müavini Oruc Zalov Azərbaycan daxili işlər orqanları qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi hazırlaşdığını deyib: "Seçkilərin sabit şəraitdə keçirilməsi üçün daxili işlər orqanları böyük məsuliyyət daşıyır. Bu seçkilərdə də daxili işlər orqanları şəxsi heyətin sayıqlığının artırılması, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün yerli icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq şəraitində çalışacaqlar. Təşviqat qruplarının təhlükəsizliyinin təmin olunması da daxili işlər orqanlarının xüsusi diqqət mərkəzində olacaq. Seçki bülletenlərinin yerlərə çatdırılması üçün əməli işlər görülür. Bu gün müasir texnologiyalar dövründə demokratik və aşkar keçirilən seçkilərə xələl gətirmək istəyənlər də yox deyil. Asayişin pozulmasına heç bir cəhd ola bilməz. Belə bir hal olarsa, qarşısı qətiyyətlə alınacaq".

Nazir müavini bildirib ki, seçkilərin sabitlik və əmin-amanlıq şəraitində keçirilməsi üçün daxili işlər orqanlarının üzərinə düşən vəzifələri tam həcmdə və layiqincə yerinə yetirməsi xüsusi əhəmiyyət kəsb edir. Mühüm dövlət tədbirlərinin qanunvericiliyin tələblərinə uyğun, təhlükəsiz şəraitində keçirilməsi, vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi üçün əsas amillərdən olan ictimai asayişin etibarlı qorunmasını təşkil etmək məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən bütün zəruri tədbirlər nəzərə alınıb və Tədbirlər Planının hazırlanmasına start verilib.

Ədliyyə nazirinin müavini Azər Cəfərov qeyd edib ki, yerli özünü idarəetmə orqani kimi bələdiyyələrin fəaliyyətini təmin etmək üçün əməli addımlar atılır: "Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bir çox Dövlət Proqramlarında bələdiyyəlirin potensialının gücləndirilməsi olə bağlı mühüm tədbirlər müəyyən edilib. Ədliyyə Nazirliyi bələdiyyələrin fəaliyyətində qanunçuluğa əmə olunması üçün mütəmadi işlər görülür. 156 bələdiyyə üzvü ilə bağlı iş baxılması üçün prokurorluq orqanlarına göndərilib".

Nazir müavini deyib ki, seçkilərin daha ədalətli və şəffaf keçirilməsi üçün hər bir Azərbaycan vətəndaşı səy göstərməlidir. Seçkilər zamanı ədliyyə orqanlarının üzərinə düşən ən mühüm vəzifələrdən biri penitensiar müəssisələrdəki vətəndaşların seçki hüququndan istifadəsinin təmin edilməsi ilə bağlıdır. Bir çox ölkələrdə məhkum olunan şəxslərin seçki hüququ yoxdur. Bəzi ölkələrdə isə bu hüquq müəyyən şərtlərlə verilir. Azərbaycanda isə seçki hüququ olan bütün məhkum olunmuş vətəndaşlar sərbəst şəkildə öz namizədlərinə səs verirlər.

Bakı Apellyasiya Məhkəməsinin sədri İman Nağıyev və Ali Məhkəmənin hakimi Xəqani Məmmədov seçki prosesi, bu sahədə qarşıya çıxan problemlər və məsələnin dərhal və ədalətli şəkildə araşdırılması barədə ətraflı məlumat veriblər.

MSK Katibliyinin müdiri Rövzət Qasımov, Komissiya Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov və Ümumi şöbənin müdiri Elşən Əsgərov qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı müxtəlif mövzularda təqdimatlarla çıxış ediblər və iştirakçıları maraqlandıran sualları ətrafı şəkildə cavablandırıblar.

Qeyd edək ki, aşağı seçki komissiyalarının üzvlərinin bələdiyyə seçkiləri ilə əlaqədar müxtəlif istiqamətlərdə maarifləndirilməsi məqsədi daşıyan genişmiqyaslı layihənin ikinci mərhələsi 15-17 oktyabr tarixlərində ölkə ərazisindəki bütün dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrlərini əhatə etməklə, seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar şəklində keçiriləcək. Bu mərhələdə regionlarda MSK təmsilçiləri, dairə seçki komissiyalarının sədrləri, rayonların yerli icra hakimiyyəti, məhkəmə, prokurorluq və polis orqanlarının rəhbər şəxsləri aşağı seçki komissiyalarının üzvləri qarşısında çıxış edəcək və seçkilərlə bağlı müxtəlif mövzular ətrafında müzakirələr aparılacaq.

Ümumilikdə 6000-dən çox seçki rəsmisini əhatə edən bu irimiqyaslı layihə aşağı seçki komissiyaları üzvlərinin seçki prosesi ilə bağlı hərtərəfli informasiya əldə etmələrinə imkan yaradacaq.

**Aysel Məmmədova**

# 26 il əvvəl: Azərbaycan xalqının müdrik və tarixi seçimi




***XX əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyinə qovuşan Azərbaycan çox çətin günlərini yaşayırdı. Ölkə daxilində hökm sürən siyasi çəkişmələr Azərbaycan dövlətinin varlığını təhlükələrə atmışdı. Azərbaycanın parçalanması və milli dövlətçiliyin süquta uğraması təhlükəsi yaranmışdı. Ölkə vətəndaş müharibəsi astanasında idi. Düşmən daxildəki hərc-mərclik, siyasi böhran və hakimiyyət boşluğundan istifadə edərək Azərbaycan torpaqlarını işğal edirdi. Belə bir məsuliyyətli və ağır mərhələdə Azərbaycan xalqı öz siyasi seçimini etdi. 1993-cü il oktyabrın 3-də Heydər Əliyevə səs verərək onu Prezident kimi özünə rəhbər gördü. Həmin gündən başlayaraq Azərbaycan bütün istiqamətlərdə ciddi uğurlar əldə etməyə başladı. Heydər Əliyev həm daxildə sabitliyə nail oldu, həm də çox səmərəli xarici siyasət kursunu formalaşdırdı. Böyük uğurla neft siyasəti həyata keçirilməyə başlandı.***

Genişmiqyaslı iqtisadi islahatlar aparıldı. İdarəetmədə, cəmiyyətin müxtəlif sferalarında modernləşmə vüsət aldı. Bütün bunlar Azərbaycan dövlətçiliyinə tarixi nailiyyətlər qazanmağa imkan yaratdı. Vurğulanan məqamlar kontekstində Heydər Əliyevin xalqın istəyi ilə yenidən ölkə rəhbərliyinə qayıdışının siyasi və geosiyasi əhəmiyyəti üzərində geniş dayanmağa ehtiyac görürük.

## Böhranlı günlərdə: xalq "HƏ" dedi

1993-cü il oktyabrın 3-də Azərbaycanın dövlətçilik tarixində mühüm hadisə baş verdi. Həmin gün ulu öndər Heydər Əliyev ölkə Prezidenti seçildi. Qədirbilən Azərbaycan xalqı öz düzgün seçimini etməkdə tərəddüd etmədi. Təcrübə göstərdi ki, xalq o zaman faktiki olaraq ölkənin bütövlüyünə, müstəqil dövlət quruculuğuna, demokratiyaya səs verdi. Heydər Əliyevin bu hadisə ilə bağlı ifadə etdiyi fikirlər olduqca maraqlı və aktualdır. Ümummilli Lider vurğulamışdı: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Bəli, Heydər Əliyev xalqın ona göstərdiyi etimadı və verdiyi səlahiyyətləri çox yüksək dərəcədə qorudu. Bütün fəaliyyəti boyu müstəqil dövlətin möhkəmlənməsi və inkişafına çalışdı. Ulu Öndər şəxsi nümunəsi ilə dövlət idarəçiliyində milliliklə vətənpərvərliyin vəhdətini nümayiş etdirdi. Bu bağlılıqda 1993-cü il oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyevin qətiyyətlə ifadə etdiyi aşağıdakı fikirləri bir daha yada salmağa dəyər. Ulu Öndər vurğulamışdı: "Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur". Bu fikirlər Azərbaycanın müstəqil dövlət quruculuğunda insan faktorunun mərkəzi yerdə durduğunu və hər bir vətəndaşın haqlarının təmin edilməsinin rəhbərlik üçün böyük əhəmiyyət kəsb etdiyini göstərirdi.

Prezident İlham Əliyevin bu bağlılıqda ifadə etdiyi aşağıdakı fikirlər olduqca lakonik və dəqiqdir. Dövlət başçısı vurğulayıb: "Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuşdur".

Şübhəsiz, bu, müdrik seçim idi. Çünki həmin dövrdə vəziyyət çox qarışıq idi. Dünyanın böyük dövlətləri hər tərəfdən Azərbaycana təzyiq edirdi. O mərhələdə naşı ölkə rəhbərliyi atdığı yanlış addımlarla dövlətçiliyin taleyini təhlükə altına atmışdı. Açıq görünürdü ki, yeni xilaskar gəlməlidir. Lakin müxtəlif istiqamətlərdən olan ideoloji təzyiqlər insanları çaşdırırdı. Xüsusilə liberalizm adı altında antimilli ruhlu ideyalar yayır, vətəndaşların doğru seçim etməsinə əngəl olmağa çalışırdılar. Bu cür vəziyyətdə postsovet məkanında milli dövlətlərin heç də hamısında xalqlar müdrik və uzaqgörən seçim edə bilmədilər. Azərbaycan xalqı isə bunu bacardı.

Həmin seçim həm də tarixi idi. Çünki Azərbaycan dövlətçiliyinin taleyini həll etdi. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsə idi, Azərbaycanın müstəqil dövlətçiliyinin qalıb-qalmaması məsələsində ümidverici bir söz demək çətin olardı. Tarixin elə mərhələləri olur ki, bütövlükdə ölkənin, xalqın və dövlətin aqibətini bircə addım həll edir. Tarixin həmin dönəmində Azərbaycan xalqı o addımı atdı və təcrübə sübut etdi ki, bu, tarixi addım olmuşdur! Həmin səbəbdəndir ki, Azərbaycan Prezidenti İlham Əliyev 1993-cü il 3 oktyabrda keçirilən seçkini tarixi adlandırıb.

## Uğurlu yolun layiqli davamçısı: Ulu Öndər əməllərdə yaşayır

Artıq o hadisədən 26 il ötür. Bu müddət ərzində Azərbaycan sürətlə və dərindən dəyişib. Ulu Öndər ilk olaraq ölkədə sabitlik yaratdı. Daxildə təhlükə törədə biləcək bütün faktorları neytrallaşdırdı. Həmin bağlılıqda Heydər Əliyevin ağır 1994-cü il və 1995-ci il dövlət çevrilişlərinə cəhdlərin qarşısını ustalıq və qətiyyətlə alması ayrıca əhəmiyyəti olan mövzudur. O mərhələdə Heydər Əliyevin qələbəsi bütövlükdə dövlətçiliyin taleyini həll etdi. Hər kəs anladı ki, Azərbaycan müstəqilliyini kimsəyə verməyəcək.

Bunun fonunda Ermənistan rəhbərliyinin Azərbaycanla atəşkəsə getməyə məcbur qalması çox vacib hadisə idi. Ermənilər atəşkəsdən öncə çox ciddi çalışdılar ki, Tərtər və Ağdərə istiqamətlərindən Azərbaycana hücum edib, daha çox ərazi zəbt etsinlər. Bunu onlara havadarları tapşırmışdı. Heydər Əliyev müdafiəni çox güclü quraraq düşməni geri oturtdu. Eyni zamanda, Füzuli istiqamətində hücumla Horadizi azad etdi. Azərbaycan Ordusu Horadiz əməliyyatına 1993-cü ilin dekabrında başladı. 1994-cü il yanvarın 6-da artıq Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi azad edilmişdi. Bu əməliyyat Azərbaycan Ordusunun 1994-cü ilin qış kampaniyasında keçirdiyi ən uğurlu əməliyyat olub. Düşmən çox tələsə düşmüş və həmişə olduğu kimi, atəşkəs üçün öz havadarına yalvarmağa başlamışdı. Real vəziyyəti düzgün qiymətləndirən Heydər Əliyev həmin il atəşkəsə nail oldu.

Bununla Azərbaycana kənardan olan təhlükə çox böyük miqyasda aradan qaldırıldı. Bu isə daxili sabitliyi təmin etmək üçün Ulu Öndərə yeni imkanlar verdi. Qısa müddətdə Heydər Əliyev ölkədə sabitliyi tam təmin etdi. O illərdə Bakıya rəsmi səfərə gələn Türkiyə Prezidenti Süleyman Dəmirəl Azərbaycanda sabitliyin təmin edilməsini çox böyük tarixi hadisə adlandırmışdı.

Yaranmış sabitliyin fonunda Ulu Öndər neft siyasətini inkişaf etdirirdi. Qısa müddətdə dünyanın böyük dövlətlərinin çox nüfuzlu şirkətləri Azərbaycana böyük sərmayələr qoydular. "Əsrin müqaviləsi"nin imzalanması isə ayrıca tarixi əhəmiyyəti olan hadisə idi. Bununla həm Azərbaycanın suveren dövlət kimi nüfuzu artdı, həm də ölkə iqtisadiyyatını davamlı inkişaf etdirmək üçün geniş imkanlar yarandı. Heydər Əliyev müstəqil xarici siyasəti gücləndirməklə yanaşı, daxildə ciddi islahatlar apardı. Bir tərəfdən Azərbaycanın beynəlxalq əlaqələri genişlənir, digər tərəfdən isə cəmiyyətin demokratikləşməsi və idarəetmədə islahatların aparılması sürətlə həyata keçirilirdi.

Bunun nəticəsində artıq XXI əsrin başlanğıcında Azərbaycan Cənubi Qafqazın lider dövləti halına gəlmişdi. Ölkə iqtisadiyyatında ciddi yeniləşmələr baş verirdi. İnfrastruktur yeniləşir və Avropa standartlarına uyğunlaşdırılırdı. Bu, Azərbaycanın iri beynəlxalq enerji, nəqliyyat, tranzit layihələri həyata keçirməsi fonunda baş verirdi. Bütün maneələrə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri istifadəyə verildi. Ekspertlər bunu Avrasiyanın enerji coğrafiyasının köklü surətdə dəyişməsi kimi xarakterizə etdilər. Proseslər göstərdi ki, onlar haqlıdırlar. Birbirinin ardınca meydana yeni layihələr çıxdı və onların əksəriyyətinin təşəbbüskarı Azərbaycan rəhbərliyi idi.

1993-cü ildən bu yana Azərbaycan bütün istiqamətlərdə böyük uğurlar əldə edib, zirvələr fəth edib. Ulu Öndərin uzaqgörənliyi sayəsində müstəqil dövlət quruculuğu durmadan inkişaf etdirilir. Heydər Əliyevin bu bağlılıqda dövlətçiliyə ən böyük töhfələrindən biri İlham Əliyev kimi dövlət xadimini yetişdirməsi və ölkəyə rəhbərliyi ona etimad etməsidir.

Dünyanın ən böyük dövlətlərinin liderləri belə etiraf edirlər ki, Azərbaycan Prezidenti çox uğurlu fəaliyyəti ilə ölkəni tarixdə görünməmiş yüksəkliklərə qaldırıb. Azərbaycan davamlı olaraq sürətlə inkişaf edir. Onun əldə etdiyi ciddi uğurlar bir sıra dairələrin qısqanclığı və paxıllığına səbəb olur. Lakin müdrik Azərbaycan xalqı öz rəhbərinə tam inanır, ona güclü dayaq olaraq qalır. Azərbaycan xalqı bilir ki, güclü lider həm də güclü xalq deməkdir, güclü dövlət deməkdir. Tarixi xoşbəxtlikdir ki, Heydər Əliyev siyasi varislik məsələsini də çox böyük uğurla həll edə bilmişdir. Ulu Öndərin adı əbədi olaraq müstəqil Azərbaycan dövlətinin memarı kimi böyük hörmətlə anılacaqdır!

**Newtimes.az**

# Yeni Azərbaycan Partiyasında “Heydər Əliyev: dəyərlərimizin xilaskarı” sənədli filmi nümayiş olunub

***Oktyabrın 11-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin birgə təşkilatçılığı ilə gənclərlə görüş keçirilib. Tədbirdə YAP Gənclər Birliyinin sədri Seymur Orucov, DQİDK-nın şöbə müdiri Amil Cavadov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev və gənclər iştirak ediblər.***





Görüş çərçivəsində gənclərə DQİDK-nın tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanan “Heydər Əliyev: dəyərlərimizin xilaskarı” sənədli filmi nümayiş olunub.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov ölkəmizdə həyata keçirilən uğurlu dövlət-din və gənclər siyasəti, Dövlət Komitəsinin fəaliyyət istiqamətləri və gənclərin maarifləndirilməsi yönündə həyata keçirilən tədbirlərin önəminə toxunub. Bildirib ki, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsinə, dinlərarası dialoqun inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına, gənc nəslin nümayəndələrinin sağlam ruhda tərbiyəsinə xüsusi diqqət göstərilir. Şöbə müdiri 2 il öncə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını Prezident İlham Əliyevin mənəvi dəyərlərimizə diqqət və qayğısının bariz nümunəsi kimi qeyd edib.

Təmsil etdiyi qurum tərəfindən dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini fanatizmə, radikalizmə qarşı effektiv mübarizənin aparılması, ölkəmizdə tarixən mövcud olan multikultural mühitin, birgəyaşayış ənənələrinin, vəhdətin qorunması və təşviqi istiqamətində maarifləndirmə işinin aparılması və təşkilinə xüsusi önəm verildiyini vurğulayan Amil Cavadov bu sahədə YAP Gənclər Birliyi ilə həyata keçirilən tədbirlərin əhəmiyyətinə də toxunub.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa edib. Ulu öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçib və müdrik siyasəti ilə əsrlərboyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırıb. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Seymur Orucov əlavə edib ki, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi də hər zaman milli-mənəvi dəyərlərin təbliğinə öz töhfəsini verməyə çalışır. Müxtəlif bölgələrdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə gənclərlə görüşlər keçirilir, müzakirələr aparılır. Bu tədbirlərin özəyində həm gənclərimizin düzgün tərbiyələnməsi, maariflənməsi dayanır, həm də Azərbaycanda mövcud olan multikultural dəyərlərin, tolerantlığın təbliğ edilməsi durur.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev isə qeyd edib ki, Fond maarifləndirmə işinin aparılması, milli-mənəvi dəyərlərin qorunması və təbliği sahəsində, habelə bu sahədə sosial layihələrin reallaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində Fondun sifarişi ilə kütləvi informasiya vasitələri və sosial medianın imkanlarından istifadə edərək mənəvi dəyərlərin təbliği işini reallaşdırmaq məqsədilə sənədli filmlər, həmçinin kiçik həcmli video-çarxlar çəkilir. Milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən filmlər və sosial video-çarxlar bu ali dəyərlərdən formalaşan adət-ənənələri, xalqımızın xeyriyyəçilik, ailə dəyərlərini əks etdirir, eyni zamanda, gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyə edilməsinə xidmət edir.

Görüş müzakirələrlə yekunlaşıb.

## Oruc Zalov: “Azərbaycan daxili işlər orqanları qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi hazırlaşır”



Azərbaycan daxili işlər orqanları qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi hazırlaşır. Seçkilərin sabit şəraitdə keçirilməsi üçün daxili işlər orqanları böyük məsuliyyət daşıyır.

AZƏRTAC xəbər verir ki, bu sözləri dairə seçki komissiyalarının sədrləri üçün keçirilən geniş müşavirədə Daxili İşlər nazirinin müavini Oruc Zalov deyib.

Oruc Zalov qeyd edib ki, bu seçkilərdə də daxili işlər orqanları şəxsi heyətin sayıqlığının artırılması, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün yerli icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq şəraitində çalışacaqlar. Təşviqat qruplarının təhlükəsizliyinin təmin olunması da daxili işlər orqanlarının xüsusi diqqət mərkəzində olacaq. Seçki bülletenlərinin yerlərə çatdırılması üçün əməli işlər görülür.

## “Qarabağ Azərbaycandır və nida işarəsi” devizi ilə fləşmob keçirilib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında beynəlxalq ictimaiyyətə ünvanlandığı “Qarabağ Azərbaycandır və nida işarəsi” mesajı ümummilli ideya kimi qəbul edilərək ətrafında milyonları toplamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məlum bəyanatının doğurduğu ümumxalq əhval-ruhiyyəsinin bir göstəricisi olaraq Yeni Azərbaycan Partiyasının gəncləri tərəfindən “Qarabağ Azərbaycandır və nida işarəsi” devizi ilə fləşmob keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirə yüksək vətənpərvərlik ruhunda, böyük maraq və həvəslə qatılan tələbələr “Qarabağ bizimdir, bizim olacaq”, “Qarabağ Azərbaycandır” şüarlarını səsləndiriblər.

## Şahdağa və Qəbələyə yeni dəmir yolu çəkiləcək



“Azərbaycan Dəmir Yolları” QSC-nin gələcək hədəfləri açıqlanıb. SİA xəbər verir ki, QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə müsahibəsində gələcək hədəflərə Bakı-Gəncə qatarının Ağstafayadək uzadılması, Şahdağa və Qəbələyə yeni dəmir yolunun çəkilməsi, Balakən istiqamətində dəmir yolunun yenidən qurulması, dəmir yolunda elektrikləşdirmə işlərinin aparılması, iki yeni deponun istifadəyə verilməsinin daxil olduğunu deyib.

## Frensis Qarri: Azərbaycan əqli mülkiyyətin qorunması sahəsində uğurlara imza atan ölkələr sırasındadır



Azərbaycan əqli mülkiyyətin qorunması sahəsində uğurlara imza atan ölkələr sırasındadır. Mükəmməl əməkdaşlığa görə Azərbaycana dərin minnətdarlığımı bildirirəm.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktoru Frensis Qarri bu fikirləri beynəlxalq quruma üzv dövlətlərin assambleyalarının Cenevrə şəhərində keçirilən 59-cu sessiyasından sonra bildirib. AZƏRTAC-a açıqlamasında Baş direktor qeyd edib ki, Azərbaycan beynəlxalq qurumun fəal üzvüdür, Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov fəallığı ilə seçilir: “Biz artıq otuz ilə yaxındır birlikdə çalışırıq və bu illər ərzində Azərbaycanda əqli mülkiyyət infrastrukturunun qurulmasında atılan addımları alqışlayırıq”.

Ötən il Azərbaycana səfər etdiyini xatırladan və bu səfərin nəticələrini yüksək qiymətləndirən F.Qarri dövlət və hökumət rəsmiləri ilə keçirilən yüksək səviyyəli görüşləri məmnunluqla qeyd edib: “Əlbəttə, bizim əməkdaşlığımız daha da dərinləşəcək və biz bu istiqamətdə addımlar atırıq. Azərbaycanın bizim təşkilata verdiyi töhfə danılmazdır”. Qeyd edək ki, sentyabrın 30-da işə başlayan sessiya oktyabrın 9-da başa çatıb.

## Ədəbiyyat sahəsində Nobel mükafatları açıqlanıb

Ədəbiyyat sahəsində 2018-ci il Nobel mükafatına polşalı yazıçısı Olqa Tokarçuk, 2019-cu il üzrə isə avstriyalı yazıçı Piter Handke layiq görülür. Bu barədə İsveç Akademiyasının Stokholmda baş tutan xüsusi tədbirində deyilib. Qeyd edək ki, 2019-cu ildə ədəbiyyat sahəsində həm ötənilki, həm də builki Nobel mükafatları laureatları adlarının elan olunması unikal haldır. Bu hal onunla bağlıdır ki, keçən il Nobel mükafatını təqdim edən orqan olan İsveç Akademiyasında baş verən qalmaqalın ardınca onun üzvlərinin sayı azalıb.

# Azərbaycan-Rusiya əlaqələri möhkəmlənir, Ermənistan isə çıxdaş olur

*Yaxud İlham Əliyevdən Nikol Paşinyana "Qarabağ Azərbaycandır və nida işarəsi" xəbərdarlığı*




***Son illər Azərbaycanla Rusiya Federasiyası arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha güclü inkişaf yolunu tutması növbəti dəfə Prezident İlham Əliyevin bu ölkəyə etdiyi səfərində, o cümlədən, orada irəli sürdüyü fikirlərində öz təsdiqini tapmış oldu. Ümumiyyətlə, dövlət başçısının Soçi səfəri və Valday klubu çərçivəsində aparılan müzakirələrdə müasir dövrün aktual məsələlərinin önə çıxarılması, bir daha sübut etdi ki, Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinə yüksək qiymət verilir, iki ölkə arasında əlaqələrin yüksək inkişaf dinamikasından məmnunluq ifadə olunur. Əbəs deyil ki, Prezident İlham Əliyev Valday diskussiya klubunu bu günün müasir dünya nizamının qlobal aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkan olaraq dəyərləndirib.***

Həmçinin, Rusiyanın Azərbaycanı ən mühüm tərəfdaş, dost və mehriban qonşu dövlət kimi görməsi də bu həqiqətləri özündə əks etdirir. Dövlət başçımız görüşündə vurğulayıb ki, Azərbaycan da bu münasibəti Rusiya dövlətinə qarşı bəsləyir: "Rusiya və Azərbaycan prezidentləri arasında görüşlər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına yaxşı təkan verir... Azərbaycan üçün Rusiya ən mühüm tərəfdaş, dost və mehriban qonşudur."

### Bu, həm də Azərbaycan xalqının haqq və ədalət səsinin beynəlxalq tribunadan səsləndirilməsi idi!

Söz yox ki, iki ölkə arasında təsdiq olunmuş "Yol xəritələri"nin reallaşdırılması da, belə bir nəticə hasil etməkdədir ki, bu gerçəklik özündə digər sahələrin inkişafına kifayət qədər yol açacaq. Prezident İlham Əliyevin "Tərəflər arasında təsdiq olunmuş "Yol xəritələri"nin reallaşdırılması daha sıx qarşılıqlı fəaliyyətə, bütün sahələrdə inteqrasiyaya və əməkdaşlığa gətirib çıxaracaq", fikri də həmin mövcudluğu ehtiva etməkdədir.

Onu da qeyd edək ki, müzakirələr çərçivəsində çıxış edən Prezident İlham Əliyev işğalçı Ermənistanın təcavüzkar siyasətinə qarşı sərt və kifayət qədər layiqli bəyanatlar səsləndirib. Daha dəqiq desək, Ermənistanın baş naziri Nikol Paşinyanın işğal olunmuş torpaqlarımızda "Qarabağ Ermənistanındır və nöqtə" kimi sərsəm bəyanatına cavab olaraq, Prezident İlham Əlyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatını səsləndirməsi işğalçılara verilən layiqli cavab olaraq qiymətləndirilir. Bu, həm də Azərbaycan xalqının haqq və ədalət səsinin beynəlxalq tribunadan səsləndirilməsi idi!

### Rəsmi Moskva Yerevanla deyil, məhz rəsmi Bakı ilə strateji əməkdaşlıq məsələlərinə önəm verir

Bu arada, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Valday Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən, söylədiyi fikirləri də diqqətdən yayınmayıb. Çünki hazırda Rusiya-Ermənistan münasibətlərində yaranmış soyuqluq və xüsusilə, ermənilərin anti-Rusiya yönündə çağırışları da, belə düşünməyə əsas verir ki, bunun başlıca səbəbləri, bir tərəfdən, Nikol Paşinyanın yürütdüyü anlaşılmaz, qeyri-konstruktiv siyasət, onun verdiyi müxtəlif səpkili məsuliyyətsiz bəyanatlar, digər tərəfdən də, Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi, regionun aparıcı dövləti kimi Azərbaycanın nüfuzunun daha da yüksəlməsi və dünyada etibarlı və səmimi tərəfdaş imici qazanmasıdır.

Təkcə bir fakta nəzər yetirək. Misal üçün, Yerevanda Avrasiya İqtisadi İttifaqının sammitində iştirak edən Rusiya Federasiyasının prezidenti Vladimir Putin yalnız sammitin sonunda, daha dəqiq desək, Rusiyaya geri dönüşünə az müddət qalmış, Paşinyanla qısamüddətli görüş keçirdi. Ölkəsinə geri döndükdən sonra isə, Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə yüksək səviyyədə qarşılanmasını təmin etdi. O cümlədən, iki dövlət arasında olan yüksək xətli inkişafı, xüsusilə vurğulayaraq, dövlət başçımızın həmin istiqamətdəki fəaliyyətini qiymətləndirdi.

Bu baxımdan, rəsmi Moskvanın Yerevanla deyil, məhz rəsmi Bakı ilə strateji əməkdaşlıq məsələlərinə önəm verməsi, həm də işğalçı ölkənin regiondan çıxdaş olması ərəfəsində qaldığını sübut edən amillərdəndir.

### Sergey Lavrov: "Qarabağın Ermənistan olması barədə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir"

Beləliklə, Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən bildirib: "ATƏT-in Minsk Qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar. Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən, bu ilin aprelində mənim iştirakımla Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət bir il əvvəlkindən sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik, bu ləngiməni aradan qaldıra bilmirik. Tərəflər yetərincə ciddi bəyanatlar, o cümlədən, Qarabağın Ermənistan olması barədə bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir".

Rusiya XİN-in ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə birgə işlədiyini vurğulayan S.Lavrov deyib: "Bu, az sayda hallardan biridir ki, bizim məsələyə baxışımız tamamilə eynidir və bizim baza sənədlərimiz var. Bizim dəfələrlə müzakirə olunmuş baza prinsiplərimiz var. Bu prinsiplər əsasında məsələnin həllini axtaracağıq. Amma məsələnin həlli birbaşa dialoq yolu ilə tapılmalıdır. Əlaqələr var, lakin nizamlanmaya dair dialoq, hələlik, bərpa olunmur. Mən burada döyüş əməliyyatlarının yenidən başlanması üçün aşkar təhlükə görmürəm. Biz bunun baş verməməsi üçün hər şeyi edəcəyik".

Bütün bu reallıqlar, bilavasitə Azərbaycanın diplomatik qələbəsi və xarici siyasətinin danılmaz uğurudur. O cümlədən, bu reallıqlar kontekstində dayanan digər faktor işğalçı Ermənistanın həyata keçirdiyi qeyri-konstruktiv siyasətinin nəticəsidir. Bu ölkə, artıq tamamilə nüfuzdan düşüb, hətta ona tərəfdaş olan dövlətlərin də etibarını itirib. Bütün bunlar isə, eyni zamanda, Azərbaycanın beynəlxalq siyasi dairələrdə və arealdakı artan nüfuzunun məntiqi göstəricisidir.

***Rövşən RƏSULOV***

## "Qaregin Njdeyə bəraət qazandırmağa çalışan Paşinyanı siyasi həyasızlıq etalonu adlandırmaq olar"



Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında Nikol Paşinyan bir daha qeyri-adekvatlığını nümayiş etdirdi. Paşinyan indi də faşizmin təbliğatçısı rolunda çıxış edir.

Bunu Trend-ə politoloq, siyasi elmlər üzrə fəlsəfə doktoru Elşad Mirbəşiroğlu deyib. Onun sözlərinə görə, faşist Almaniyasının işğalçılıq siyasətinin aparıcı elementlərindən biri, Hitlerin əlaltısı olmuş Qaregin Njdeyə bəraət qazandırmağa çalışan Paşinyanı siyasi həyasızlıq etalonu adlandırmaq olar:

"Nikol Paşinyan sözügedən iclasda bildirib ki, Njde 1918-ci ildə erməni-türk müharibəsi zamanı türklərə qarşı mübarizə aparıb. Bu cür olsa belə, bu, Njdenin faşist Almaniyası tərəfindən SSRİ-yə qarşı vuruşmasına və minlərlə dinc insanların qətlə yetirilməsinə bəraət qazandırmır. Bunu dərk etmək iqtidarında olmayan Paşinyan bir az da irəli gedərək ötən əsrin 30-50-ci illərində onun repressiyalara məruz qaldığını və Vladimir həbsxanasında öldüyünü, onların hamısının xalq düşməni adlandırılmasının doğru olmadığını bildirib. Dar dünyagörüşlü Paşinyan olduqca uğursuz analogiya aparır. Çünki Njde 1948-ci ildə konkret olaraq törətdiyi hərbi cinayətlərə görə 25 illik həbs cəzası alıb".

Politoloq ermənilərin Njdeyə bu günə qədər bəraət ala bilmədiklərini də xüsusi vurğulayıb. Qeyd edib ki, İkinci Dünya Müharibəsi zamanı Ukrayna və Polşada dinc insanların kütləvi qətlində fəal iştirakına görə, SS rəhbərləri tərəfindən "nümunə" göstərilən Njdeyə bəraət qazandırmaq cəhdi bir daha sübut edir ki, Ermənistanın hazırkı rəhbəri bəşəriyyət üçün qorxulu kabus olan faşizmi dəstəkləyir və təbliğ edir:

"Tam əminliklə vurğulaya bilərəm ki, Paşinyanın 2015-ci il dekabrın 17-də BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş 70/139 saylı "Nasizmin qəhrəmanlaşdırılması, neonasizm və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onunla əlaqədar dözümsüzlüyün artmasına səbəb olan digər hallara qarşı mübarizə" adlı Qətnamənin mövcudluğundan belə xəbəri yoxdur. Qətnaməyə əsasən, Njde kimi terrorçu, faşist "qəhrəmanlara" abidə ucaltmaq qadağandır. Paşinyanın Njdeni uğursuz şəkildə dəstəkləməsi cəhdi bir daha sübut edir o, özü və Ermənistan üçün "saatlı bomba" olmaq missiyasını uğurla yerinə yetirir".

# Ermənilər həm özlərini, həm də Paşinyanı ittiham edirlər

## "Armenianreport": "Hər kəs gördü ki, Rusiya trekindəki iflas bütün hallarda gerçəklikdir"

Rusiya prezidenti Vladimir Putinin Yerevana səfəri və səfər çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanın düşdüyü alçaldıcı durum, bu gün də, Ermənistan mediasının və ictimai dairələrinin ən çox müzakirə olunan mövzusuna çevrilib. Bu barədə "armenianreport" portalının siyasi şərhçisi Qalust Qriqoryan "Təhlükəli opatiya" başlıqlı məqalə yazıb. Belə ki, müəllif, Rusiyanın "Kommersant" qəzetində Putinin Avrasiya İqtisadi İttifaqı sammiti çərçivəsində Ermənistana səfərini və Yerevanın "Dvin" mehmanxanasındakı 10 dəqiqəlik ayaqüstü görüşünü şərh edən "Politekonomiya" araşdırmalar institunun politoloqu Benyamin Matevosyanın fikirlərini xatırladıb.

"Nikol Paşinyanın Vladimir Putinlə "Dvin" mehmanxanasının divarları arxasında, həmçinin, Rusiya prezidentinin ikinci prezident Robert Koçaryanın arvadı Bella Koçaryanla görüşündən sonra getdiyi və Yerevanın "Zvartnots" hava limanında keçirdiyi 10 dəqiqəlik görüşləri, yalnız protokol foto-videoçəkilişlərlə məhdudlaşdı. Göründüyü kimi, yığılmış problemlərin müzakirəsi baş vermədi" deyə Matevosyan Rusiya nəşrinə danışıb.

### "Artıq elə də yeni olmayan rəhbərlik iki stulda oturmaq qərarına gəldi"

Beləliklə, həmin məsələlərin şərhini verən erməni müəllif yazır ki, faciə yalnız Putinin Paşinyanı şikar şəkildə futbol topu kimi kənara atmasında deyil, faciə ondadır ki, Ermənistanın baş naziri situasiyanı belə bir rüsvayçılığa qədər gətirib-çıxarıb. SİTAT: "Təsir etmək deyil, hər zaman bir xətti tutmaq lazım idi. Özünü Avropaya doğru gedən demokratiya tərəfdarı adlandırmaqdansa, məhz həmin yolla get, heç bir yana dönmə və Putinli Rusiyanın dediklərinə diqqət yetirmə. Axı onlar hər zaman vardırlar, onlar bütün hallarda da var olacaqlar".

Q.Qriqoryan ölkəsinin rəhbərliyinə istehzalı münasibət sərgiləyərək, daha sonra yazır: "Ölkənin yeni, öz aramızdır, artıq elə də yeni olmayan rəhbərliyi iki stulda oturmaq qərarına gəldi. Hakimiyyət özünü və bizim cəmiyyəti də inandırmağa çalışdı ki, quzu ilə canavar ittifaqı mümkündür. Bu, qeyri-təbii idi... Lakin hər şeyə görə cavab verməli olacaq Paşinyan, özünü kifayət qədər taktik və strateq kimi aparırdı. Nəticədə, hər kəs gördü ki, Rusiya trekindəki iflas bütün hallarda gerçəklikdir. Hətta baş nazir nə qədər yalan danışsa da ki, Yerevanla Moskva arasında hər şey "mükəmməldir". Məsələ ondadır ki, Putinli Rusiya ölkə daxilində nəyisə dəyişmək həvəsindədir. Bununla yanaşı, orada, baş verən istənilən inqilabları, kimlərlə komfortlu işlər gördükləri halda, onları itirdiklərini izləyirlər".




Erməni müəllif artıq erməni cəmiyyətinin mübarizə aparmaqdan yorulduğunu da yazıb və qeyd edib ki, cəmiyyəti özünün etirazçı buxarını "məxməri inqilab" zamanı, bütünlüklə buraxaraq-bitirib.

### "Bu, həm də cəmiyyətin siyasi savadsızlığının bağışlanmaz səhvi idi..."

"İndi biz apatiya müşahidə edirik" deyə yazan Qriqoryan əlavə edir ki, insanlar vətəndaş olmaqdan tükənirlər: "Sosial-iqtisadi problemlər, yaşamaq üçün gündəlik mübarizə aparmaq məcburiyyəti - cəmiyyətin apotik vəziyyəti belədir. İnsanlar Ermənistanın taleyinə inanırdılar və öz talelərini onlara böyük dəyişikliklər vəd edənlərin əllərinə verdilər. Lakin bu, həm də cəmiyyətin siyasi savadsızlığının bağışlanmaz səhvi idi..."

Beləliklə, faktlar da onu göstərir ki, Ermənistanın ictimai rəyi Paşinyanın üzərində dayanaraq, onu dəstəkləyib - inqilab etməklə də ciddi səhvə yol veriblər. Erməni müəllif də mövzusunun sonunda etiraf edir ki, günahkar həm Paşinyan, həm də erməni xalqıdır...

**Rövşən NURƏDDİNOĞLU**

# Milli Məclis komitələrinin birgə iclasında bir sıra qanun layihələri müzakirə edilib



***Oktyabrın 11-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı iclası açaraq gündəlikdəki qanun layihələri barədə məlumat verib. Komitə sədri qeyd edib ki, Ailə Məcəlləsində, Mülki-Prosessual və Mülki məcəllələrdə, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlər Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında parlamentə daxil olub.***

Bildirilib ki, Ailə Məcəlləsinə təklif olunan dəyişikliklər Azərbaycan Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi daşıyır. Dəyişikliklər övladlığagötürmə sahəsində idarəetmə mexanizmlərini, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun təkmilləşdirilməsini, bu prosesdə şəffaflığın təmin edilməsini, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinə nəzarətin gücləndirilməsi məsələlərini əhatə edir.

Mövcud qanunvericiliyə əsasən valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların 3 pilləli uçotu aparılırdı. Yeni yanaşma isə təkmil uçotun aparılmasına, uçotu aparılan şəxslər haqqında məlumatların real vaxt rejimində yenilənməsinə, övladlığa uşaq götürmək istəyən şəxslərin həyat şəraitinin, uşaqla ailənin uyğunlaşmasının müəyyən edilməsinə tam imkan verəcək.

Sənədlərdə aparılan dəyişikliklərin əhəmiyyətini vurğulayan Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təklif olunan əlavə və dəyişikliklərin övladlığa götürmə sahəsində şəffaflığın təmin olunması, məsuliyyətliliyin artırılması və idarəetmənin təkmilləşdirilməsinə xidmət edəcəyini söyləyib. Deputatlar Tahir Kərimli, Sədaqət Vəliyeva, Sahibə Qafarova, Çingiz Qənizadə, Elşən Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, Təhsil Nazirliyinin idarə rəisi Mələhət Hacıyeva, Səhiyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Ailə, qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin nümayəndələri sənədlə bağlı fikirlərini bildirib, qanun layihəsinin övladlığa uşaq götürmə sahəsində mövcud olan boşluqların aradan qaldırılması üçün təkmil bir şəkildə işləndiyini qeyd ediblər. Müzakirə olunan qanun layihələrinin baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# Türkiyənin qələbələri erməniləri bərk narahat edir



Suriyada antiterror əməliyyatlarına görə Ermənistan tərəfi çox narahatdır və bu əməliyyatlara elə bir don geyindirməyə çalışırlar ki, guya Türkiyə Osmanlı İmperiyasının ərazilərini və şöhrətini bərpa etmək və bölgədəki bir nömrəli dövlətə çevirmək üçün ciddi planlar tətbiq edir. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu tert.am-a verdiyi müsahibədə, Fövqəladə və Səlahiyyətli Səfir Arman Navasardyan

Məlumata görə, səfir Arman Navasardyan, Türkiyənin Suriyanın şimalındakı hərbi əməliyyatına toxunaraq, Türkiyənin uzun müddətli planlarını İŞİD-lə mübarizə aparmaq adı altında düşüncəli şəkildə həyata keçirdiyini qeyd edib. Navasardyan əminliklə deyir ki, bu gün Türkiyə Osmanlı İmperiyasının ərazilərini və şöhrətini bərpa etmək və bölgədəki bir nömrəli dövlətə çevirmək üçün ciddi planlar hazırlayır. Arman Navasardyan qeyd edib ki, Türkiyə müasir silahlar topladığı Naxçıvan istiqamətində Ermənistan üçün də ciddi təhlükədir. Bir sözlə Türkiyənin qələbələri erməniləri bərk narahat edir və buna görə də türklərin terrorçular üzərində savaşına don geyindirməyə çalışırlar.

# "MDB ölkələri ilə Azərbaycan arasında əlaqələr yüksək səviyyədədir"

***"Azərbaycan-Türkmənistan arasındakı münasibətlər öz inkişaf dövrünü yaşayır". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.***



Deputatın sözlərinə görə, ötən il Azərbaycanla Türkmənistan arasında əməkdaşlığa dair 20-dən çox sənəd imzalanıb: "Prezident İlham Əliyev hal-hazırda Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edir. Prezident Aşqabada səfəri çərçivəsində ölkənin aparıcı dövlət rəhbəri ilə, eyni zamanda digər dövlət başçıları ilə ikitərəfli görüşlər keçirib. Bu görüşlərdə ölkələrarası münasibətlərin gələcək inkişafı istiqamətində fikir mübadiləsi aparılıb. Bununla belə Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında geniş çıxış edib. Ölkə başçısı burada Ermənistanın faşizm siyasətinin iç üzünü açıb göstərdi. Azərbaycan lideri Ermənistanın yeni hakimiyyətini əvvəlki hakimiyyətin faşist Qaregin Njdeyə qoyduğu abidəni hələ də sökməməkdə ittiham edib. Bu da onu göstərir ki, indiki Ermənistan dövlət başçısının siyasəti faşizm üzərində qurulub. Türkmənistanda baş tutmuş MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası həm də Azərbaycan üçün bir platforma oldu. Ümumiyyətlə götürdükdə MDB ölkələri ilə Azərbaycan arasında ikitərəfli yüksək əlaqələr vardır. Belə görüşləri həm də ölkələrarası gələcək əlaqələrin inkişafı baxımından çox əhəmiyyətli hesab edirəm".

# Azərbaycan və Aİ arasında viza rejiminin sadələşdirilməsi üzrə iclas keçiriləcək



Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında viza rejiminin sadələşdirilməsi üzrə komitənin iclası keçiriləcək. SİA-nın xəbərinə görə, bunu Aİ-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, iclas noyabr ayında Bakıda keçiriləcək.

Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanmasına gəlincə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri söyləyib ki, Biz Azərbaycan tərəfdən "Açıq səma haqqında" Aviasiya sazişi üzrə son texniki təklifləri gözləyirik: "Bundan sonra danışıqların sonuncu raundu keçiriləcək və nəticədə saziş imzalanacaq".

# YAP Yasamal rayon təşkilatında Çingiz Abdullayevlə görüş keçirildi

***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında xalq yazıçısı, görkəmli detektiv ustası, Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevlə görüş keçirildi. Görüşdə rayon təşkilatının fəalları, eləcə də, rayon ərazisində yerləşən ali təhsil müəssisələrinin tələbəgəncləri iştirak edirdi.***



Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Çingiz Abdullayevin yaradıcılıq yoluna, yaradıcılıq görüşlərinə nəzər salaraq, bu günə qədər 194 əsərin müəllifi olaraq, böyük oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandığını diqqətə çatdırdı. Qeyd etdi ki, əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunaraq, ən böyük tirajlarla nəşr olunub: “Azərbaycanda 130 kitabı nəşr olunub. Bu kitablar onu siyasi detektiv janrında yazan ən məhsuldar müasir yazıçılardan biri kimi tanıtdırıb. “Dərdimə şərik ol”, “İnsan ovu”,”Mavi mələklər” və başqa əsərləri ona dünya şöhrəti qazandırıb. Xidmətlərinə görə dövlətimiz tərəfindən bir çox mükafatlar, eləcə də, “Şöhrət”, “Şərəf” ordenləri ilə təltif edilib”.

Görüşdə çıxış edən Ç.Abdullayev yaradıcılığı ətrafında müəyyən məqamları iştirakçıların diqqətinə çatdıraraq, bugünə qədər əsərləri əsasında 10 filminin çəkildiyini, yaxın zamanlarda isə, 2 filminin çəkiləcəyini diqqətə çatdırdı. “Dronqo”, “Məhkumlar”, “Tərsinə çevrilən dünya” kimi filmlərinin dünyada şöhrət tapdığını söylədi. Qeyd etdi ki, 10-cu filmində baş rolu İlqar Muradov yaratmış və aktyor olmasa da, azərbaycanlının mövqeyini və fikrini ifadə etməyə nail olmuşdur. Əsərlərinin 32 dilə tərcümə olunduğunu dilə gətirən yazıçı gənclərə kitab oxumağın əhəmiyyətini və vacibliyini tövsiyə etdi. Bildirdi ki, o xalq ki, kitab oxumur, onun sivilizasiyası ola bilməz. Yazıçının cəmiyyətdə rolu, mövqeyi və gənc nəslin tərbiyəsində roluna da diqqət çəkdi. Görüşdə yazıçı əsərlərinin qəhrəmanlarından və onların taleyindən geniş söhbət açdı.



Görüşdə, Ç.Abdullayev tələbəgənclərin çoxsaylı suallarını cavablandırdı.Sonra YAP Yasamal rayon təşkilatı tərəfindən partiya sıralarına qəbul olunmuş 12 nəfərə üzvlük vəsiqələri təqdim olundu.

Sonda xalq yazıçısı iştirakçılara avtoqraflar verib və onlarla birgə fotoşəkillər çəkdirdi.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Partlayıcı qurğu “mütəxəssisi” və digər terrorçular DTX tərəfindən saxlanılıb

***Azərbaycan Respublikası vətəndaşlarının radikal dini ideyaların təsiri altında terror təşkilatlarına və bu təşkilatlar tərəfindən ölkə hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb edilmələrinə qarşı Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) kompleks mübarizə tədbirləri davam edir.***



DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 218.2-ci (cinayətkar birlikdə iştirak etmə) və 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmənin fəaliyyətində iştirak etmə) maddələri ilə aparılan cinayət təqibi üzrə əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, “Abu İbrahim Dağıstani” dini ləqəbi ilə beynəlxalq terror təşkilatlarında partlayıcı qurğular üzrə mütəxəssis kimi fəaliyyət göstərən Azərbaycan Respublikasının vətəndaşı, 1971-ci il təvəllüdlü Güləliyev Bəhram Tağıbəy oğlu 2003-cü ildə qeyri-leqal yollarla Əfqanıstan ərazisinə keçib və oradakı qanunsuz silahlı birləşmələrə qoşulub.

Bəhram Güləliyev barəsində başlanılan cinayət işi üzrə beynəlxalq axtarış tədbirləri çərçivəsində o, Pakistan İslam Respublikasında saxlanılaraq 2019-cu ilin oktyabr ayında Azərbaycan Respublikasına ekstradisiya edilib.

Müəyyən olunub ki, Bəhram Güləliyev beynəlxalq terror təşkilatlarını kimyəvi maddələrdən istifadə etməklə hazırladığı partlayıcı qurğularla təchiz edib, əcnəbilərdən ibarət qanunsuz silahlı birləşmələrin tərkibində partlayıcı qurğuların hazırlanması üzrə təlimlər aparıb, eləcə də Azərbaycan Respublikasının vətəndaşlarını həmin silahlı münaqişələrə cəlb edib.

Davam edən araşdırmalarla, Əfqanıstan və Pakistanın sərhəd bölgələrində terror təlimlərində və silahlı münaqişələrdə iştirak edən, daha sonra tərkibində olduğu dəstənin digər üzvləri ilə birlikdə Suriya ərazisinə keçərək orada dini düşmənçilik zəminində aparılan döyüşlərdə iştirak edən Azərbaycan Respublikasının vətəndaşı, 1988-ci il təvəllüdlü Süleymanov Telman Çərkəz oğlu, habelə onunla eyni vaxtda həmin terror qruplaşmalarının tərkibində Suriyanın Atma və digər şəhərlərində silahlı münaqişələrdə iştirak edən Azərbaycan Respublikasının vətəndaşı, 1986-cı il təvəllüdlü Qasımov Elçin Tofiq oğlu ifşa olunaraq saxlanılıblar.

Həmçinin beynəlxalq terror təşkilatlarına qoşulduğuna görə, hazırda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilmiş 1982-ci il təvəllüdlü Abbasov Rasi Yaşar oğlunun 2014-cü ilin sentyabr ayında ölkə ərazisini tərk edərək Türkiyəyə, oradan isə xüsusi bələdçilər vasitəsilə qanunsuz yolla Suriya ərazisinə keçərək terror təşkilatına daxil olduğu, həmin cinayətkar birliyin tərkibində Suriyanın Cerablus, Rakka və digər şəhərlərində dini düşmənçilik zəminində aparılan silahlı münaqişələrdə iştirakı müəyyən edilib.

Bəhram Güləliyev, Telman Süleymanov, Elçin Qasımov və Rasi Abbasov cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib. Dövlət Təhlükəsizliyi Xidməti bir daha Azərbaycan Respublikasının vətəndaşlarını hər hansı formada qanunsuz silahlı birləşmələrə cəlb edən şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb olunacaqları barədə xəbərdarlıq edir və radikal dini ideoloji təsir altına düşmüş vətəndaşları belə qanunsuz silahlı birləşmələrə qoşulmamağa çağırır.

# Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın inkişaf salnaməsinin müəllifidir

## Milli Məclisin deputatı Malik Həsənovun yap.org.az-a müsahibəsi



***- Malik müəllim, müstəqil Azərbaycan dövlətinin qurucusu - banisi olan Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətləri misilsizdir. Ümummilli Liderin zəngin və çoxşaxəli fəaliyyəti ilə bağlı fikirlərinizi bölüşməyinizi istərdik.***

- Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə - istər SSRİ dönəmində, istərsə də müstəqillik illərinə xalqımız, dövlətimiz qarşısında misilsiz xidmətlər göstərib. Biz haqlı qürur hiss və fəxarətlə qeyd edirik ki, Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin banisidir. Bilirsiniz ki, 1991-ci ildə müstəqilliyini əldə etmiş Azərbaycan ciddi siyasi və iqtisadi problemlərlə qarşı-qarşıya idi. Xüsusilə də, həmin dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz və milli maraqlardan uzaq siyasəti Azərbaycanı xaos meydanına çevirmiş, ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir acınacaqlı vəziyyətdə Azərbaycanı düşdüyü ağır şəraitdən - faciə və fəlakətlərdən xilas edəcək güclü siyasi liderə ehtiyac var idi. Bu şəxsiyyət məhz böyük dövlət xadimi, dahi siyasətçi Heydər Əliyev idi. Xalqımız 1993-cü ildə parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli Lider Heydər Əliyevə üz tutdu. Həmin il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. 1993-cü il iyunun 15-də isə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu.

Ulu Öndər Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Lider andiçmə mərasimində söylədiyi nitqində xalqın Ona olan etimadını yüksək dəyərləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, milli maraqların yüksək səviyyədə təmin olunması naminə çalışacağını bildirmişdi. O, xalqın ümidlərini tam doğrultdu. Qısa müddət ərzində Ulu Öndər Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxardı. Azərbaycanın iqtisadi dirçəlişi təmin olundu, nizami ordu quruculuğuna başlandı, uğurlu hüquqi, demokratik islahatlar həyata keçirildi. Xalqımızın və dövlətimizin xilaskarı olan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli, məqsədyönlü, uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan güclü, qüdrətli bir dövlətə çevrildi, ölkəmiz beynəlxalq arenada söz və nüfuz sahibi kimi çıxış etməyə başladı, etibarlı tərəfdaş kimi tanındı. Bütün bunların məntiqi nəticəsi kimi, Ulu Öndər 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz növbəti 5 illik fəaliyyəti dönəmində də Ulu Öndərin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan parlaq nailiyyətlər qazandı, inkişaf yolunda əmin addımlarla irəlilədi.

***- Yeri gəlmişkən, müstəqillik dövründə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı istiqamətində hansı addımlar atıldı, əldə olunan nəticələr nədən ibarət idi?***

- Əvvəla qeyd edim ki, Ulu Öndərin gərgin əməyi və qətiyyətli səyləri nəticəsində 20 sentyabr 1994-cü il tarixində "Əsrin müqaviləsi"nin imzalanması ölkə iqtisadiyyatının inkişafı üçün güclü təkan oldu, bu prosesə müstəsna töhfələr verdi. Heydər Əliyev bəhs olunan müqavilə və ondan sonra imzalanan yeni sazişlərlə ölkəmizə böyük həcmlərdə investisiyalar yönəltməyə nail oldu. "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycana gələn böyük həcmlərdə maliyyə vəsaiti sonrakı mərhələdə məqsədyönlü şəkildə sosial-iqtisadi layihələrin reallaşdırılmasına yönəldildi və iqtisadiyyatın şaxələndirilməsi təmin edildi. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyev iqtisadiyyatın dirçəlməsinə yönələn müdrik qərarlar qəbul etdi, o cümlədən 100-dən çox Fərman və Sərəncam imzaladı. Ümummilli Liderin təşəbbüsü əsasında parlamentdə yeni qanunlar qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixində imzaladığı "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" müvafiq Fərmanla respublikamızda geniş torpaq islahatı həyata keçirildi.

Beləliklə, 1995-ci ildən milli iqtisadiyyatımızda bərpa, 1996-cı ildən isə artım dövrü başladı. Bütövlükdə, 1995-2003-cü illər ərzində respublikamızda ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə artdı. Bəhs olunan dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində sərmayə yönəldildi.

***- Malik müəllim, bu gün müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inamla və uğurla inkişaf edir. Hazırkı inkişaf və perspektivlərlə bağlı fikirləriniz nədən ibarətdir?***

- Bəli, bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında uğurla və inamla inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə möhtəşəm uğurlar qazanaraq inkişaf yolunda əmin addımlarla irəliləyən qüdrətli Azərbaycan dünyada sabitlik adası kimi tanınır, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir.

Azərbaycanın dinamik tərəqqisindən bəhs edərkən sosial-iqtisadi inkişafa xidmət edən ardıcıl və məqsədyönlü tədbirlərin səmərəli nəticələrini xüsusi vurğulamaq lazımdır. Statistik göstəricilər də bu reallığı ifadə edir. Belə ki, son 15 ildə ölkəmizdə ümumi daxili məhsul istehsalı 3,2 dəfə, qeyri-neft sahəsində ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfəyə yaxın artıb. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Digər faktlara da nəzər salaq: ölkədə qazlaşdırma 96 faizdir, əhalinin 75 faizi isə dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir. Sosial infrastruktur tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub. Əlbəttə, bütün sahələrdə müşahidə olunan dinamik tərəqqi Azərbaycanın bölgələrini də əhatə edib, regionların sosial-iqtisadi inkişafı davamlı xarakter alıb. Respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın da icrası yüksək səviyyədə təmin olunub və Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti Fərmanla "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiqlənib. Hazırda müvafiq Dövlət Proqramı çərçivəsində müəyyən olunmuş işlər müvəffəqiyyətlə davam etdirilir. Bütün bunlar isə, şübhəsiz ki, regionların sosial-iqtisadi inkişafının davamlı xarakter daşıdığını göstərir.

Bütün bu nailiyyətlərin əsasında duran amil, qeyd etdiyim kimi, Heydər Əliyev siyasətinin Ümummilli Liderin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

# BMT-nin eksperti: Son iki ildə Azərbaycan ərzaq və qida təhlükəsizliyi sahəsini inkişaf etdirmək üçün əhəmiyyətli addımlar atıb

"Son 20 il ərzində yüksək iqtisadi artım və sosial sahədə həyata keçirilən dəyişikliklər sayəsində Azərbaycan yüksək nəticələr göstərən yuxarı orta gəlirli ölkəyə çevrilib. Lakin ölkə iqtisadiyyatını daha da şaxələndirmək üçün səylər göstərilməli və kiçik fermerlərə dəstək verilməlidir."



Bu sözləri BMT-nin insan hüquqları üzrə eksperti Hilal Elver oktyabrın 11-də keçirilən mətbuat konfransında deyib. O, oktyabrın 1-dən 11-dək Bakı, Quba və Gəncəyə səfər etdiyini, fermerlər, xalça toxucuları, qadın sahibkarlar, beynəlxalq inkişaf agentliklərinin nümayəndələri, dövlət internat məktəbində əlilliyi olan uşaqlar, eləcə də yerli və mərkəzi hökumət rəsmiləri ilə görüşlər keçirdiyini diqqətə çatdırıb.

On bir günlük səfərinin ilkin bəyanatını təqdim edən mütəxəssis bildirib: "Hökumət iqtisadi sabitliyi təmin etmək məqsədilə ölkənin aqrar potensialını inkişaf etdirmək və məhsuldarlığı artırmaq üçün səylər göstərir. Son iki il ərzində Qida Təhlükəsizliyi Agentliyi kimi yeni təsisatların yaradılması istiqamətində Azərbaycan təqdirəlayiq addımlar atıb, kənd təsərrüfatı, ərzaq və qida təhlükəsizliyi sahələrini inkişaf etdirmək üçün yeni qanunlar, siyasət və proqramlar qəbul edib. Hazırda əsas məsələ müvafiq vəsaitin ayrılmasını təmin edərək həmin məqsədləri həyata keçirmək, iqtisadi artıma nail olmaqdır. Növbəti onillik həlledici əhəmiyyət kəsb edəcək. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından, Azərbaycan özözünü təmin edə bilmək üçün səylər göstərməli və kiçik fermerlərin bazarda rəqabət qabiliyyətini gücləndirməlidir".

H.Elver gələn il martda Cenevrədə ətraflı hesabatını BMT-nin İnsan Hüquqları Şurasına təqdim edəcək.

## Naxçıvan Bölməsinin biblioqrafik göstəricisi işıq üzü görüb




AMEA Naxçıvan Bölməsinin 2018-ci ilin biblioqrafiq göstəricisi çap olunub. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bölmənin Elmi-təşkilat şöbəsində tərtib edilən biblioqrafiyada qurum əməkdaşlarının ölkəmizdə və xaricdə işıq üzü görən monoqrafiyaları, kitabları, tezisləri, jurnallarda, toplularda, eləcə də dövrü mətbuatda dərc edilən məqalələri, tərcümələri, o cümlədən internet resursları verilib. "Köməkçi göstəricilər" adlı bölmədə əsər başlıqları, müəlliflərin əlifba göstəriciləri yer alıb. Biblioqrafik göstəricidə 843 mənbə əksini tapıb. Onlardan 39-u kitab və monoqrafiya, 663-ü məqalədir ki, onun da 162-si xaricdə işıq üzü görüb. Elmi məqalələrdən 48-i impakt faktorlu jurnallarda dərc olunub.

# "Armenianreport": "Üç qız atası Paşinyan qızlarının Kardaşyanın yolu ilə getməsini istəyir"

*"Paşinyan özü də bilmədən Kardaşyanın Ermənistanı yüksək səviyyədə tanıtmasına yüksək qiymət verməsi ilə, yalnız öz reytinqinə deyil, eləcə də, ölkəmizin nüfuzuna güclü zərbə vurdu". Bu barədə "armenianreport" portalının siyasi şərhçisi Tevos Arşakyan öz məqaləsində yazıb.*

"Amerikanın erməni mənşəli ulduzu K.Kardaşyan, artıq çoxdan adət edib ki, onu Ermənistanda böyük qucaq açmaqla qarşılayırlar" deyə yazan erməni təhlilçi qeyd edir ki, bundan əlavə, ona ən yüksək səviyyədə diqqət göstərirlər: "Ulduz ailəsinin bu həftə ölkəmizə gəlməsi də istisna deyil. Belə ki, Kim yalnız hakimiyyətsiz və iradəsiz prezident Armen Sarkisyan tərəfindən deyil, həm də bütünlüklə, hakimiyyəti əlində saxlamağa köklənmiş baş nazir Nikol Paşinyan tərəfindən də qəbul olunub ki, hökumət başçısı buna görə güclü ictimai qınağa məruz qalıb".

**Tevos Arşakyan: "Kim Kardaşyan dünya miqyasında hər hansı xüsusi elmi, səhiyyə və siyasət nailiyyətlərinə görə deyil, porno-ulduz olduğuna görə tanınır"**

Arşakyan xatırladıb ki, Kardaşyanın Ermənistana səfərindən heç də sevinməyə və fəxr etməyə lüzum yoxdur. "Kim Kardaşyan dünya miqyasında hər hansı xüsusi elmi, səhiyyə və siyasət nailiyyətlərinə görə deyil, porno-ulduz olduğuna görə tanınır" deyə yazan erməni müəllif, daha sonra qeyd edir ki, o, qeyd-şərtsiz porno-ulduz olaraq populyarlaşıb: "İnternet şəbəkələrində kifayət qədər foto və videomateriallar var ki, K.Kardaşyan orada yalnız öz bədən üzvlərini göstərmir, yumşaq desək, sekslə məşğul olur, özü də hər dəfə ənənəvi xarakterdə deyil, digər xüsusiyyətləri ilə də...

Ona görə də, mən özümü həmin insanlara aid edirəm ki, onlar bu şəxsi erməni xalqının adını batıran, həm də erməni şəxsinə və gəncinə pis təsir edən adam kimi tanıyırlar. Axı o, gənc erməni qızlarına hansı nümunəni göstərə bilər? Kef edirsiniz, publik sekslə məşğul olursunuz və buna görə də, tanınırsınız? Çətin ki, hər hansı bir adekvat valideyn öz qızına belə bir populyarlıq arzulasın. Ancaq etiraf etməliyik ki, bizim ölkəmizdə elələri də var ki, Kimə pərəstiş edirlər və onların arasında baş nazir Nikol Paşinyan da var".

"Kim Kardaşyanı qəbul edərkən, rəsmi səviyyədə söhbət etdiyi zaman birgə selfi çəkərkən, Nikol Vovayeviç səhv olaraq düşünür ki, bu xeyirxah xidmətlə nəticələnəcək, reytinqini artıracaq, onun tanınmış ermənilərə diqqət və qayğısını göstərəcək. Ancaq Paşinyan özü də bilmədən Kardaşyanın Ermənistanı yüksək səviyyədə tanıtmasına yüksək qiymət verməsi ilə, eləcə də, ölkəmizin dünya arenasında imicinin artmasının, məhz onun xidmətlərinin olması ilə əlaqələndirməsi ilə yalnız öz reytinqinə deyil, eləcə də, ölkəmizin nüfuzuna güclü zərbə vurdu".

**"Paşinyan Kimə qarşı dözümlü yanaşırsa və hesab edirsə ki, onun bədəni və seksual orgiyaları Ermənistanı beynəlxalq aləmdə populyarlaşdırır, onda..."**

"Üzr istəyirəm, ölkə dünyada iqtisadi uğurlarına, elm inkişafına, demokratiya səviyyəsinə görə tanınmalıdır, lüt soyunmuş Kim Kardaşyana görə yox" - yazan Arşakyan əlavə edib ki, əgər Paşinyan Kimə qarşı dözümlü yanaşırsa və hesab edirsə ki, onun bədəni və seksual orgiyaları Ermənistanı beynəlxalq aləmdə populyarlaşdırır, onda mənim, sadəcə, deməyə heç bir sözüm qalmır. Axı onun özü də üç qız atasıdır! O, istəyərdimi ki, Mariyam və Şuşanna (Paşinyanın qız övladları-red.) lüt soyunmuş Kimin izi ilə getsinlər? Əgər bu sualın cavabı müsbətdirsə, bu zaman mənim Paşinyana daha heç bir sualım yoxdur. Əgər o öz qızlarına belə bir karyera arzulamırsa, onda nəyə görə bizim cəmiyyətə mental dəyərlər nəzərindən və etik baxımdan, bu qədər ürəkbulandırıcı davranır?"



**"Kimi təxirə salmadan qəbul etdi, krallara layiq qəbul təşkil etdi, lakin oğulları qeyri-müharibə şəraitində olan anaların yalvarışlarına qarşı kar və kor qaldı"**

"Bu da son deyil. Paşinyan həm də ona görə ictimai hiddətə səbəb oldu ki, o, Kimi təxirə salmadan qəbul etdi, ona ölkədə, sözün əsl mənasında, krallara layiq qəbul təşkil etdi, lakin oğulları qeyri-müharibə şəraitində olan anaların yalvarışlarına qarşı kar və kor qaldı" deyə yazan erməni müəllif qeyd edib ki, hər həftənin cümə axşamı günü analar hökumət binası qarşısında piketlər keçirirlər, lakin Paşinyan yalnız bir dəfə onların qarşısına çıxdı. O da ki, heç bir vəd vermədən. Bundan sonra o, övladları öldürülmüş valideynlərin qarşısına çıxmadı...

"Baş nazirin məntiqi burada bəllidir - o, piket keçirən əsgər anaları ilə görüşmək, tələb və xahişlərini eşitmək marağında deyil" deyə yazan siyasi şərhçi qeyd edir ki, onda nəyə görə porno-ulduzla söhbət etmək, bundan zövq duymaq, təhrikedici bədəninə baxmaq, həmin bədənə toxunmaq üçün selfi çəkdirmək ona maraqlıdır?

"Kimin sosial şəbəkələrdə nəhəng izləyici ordusu var ki, onlar Ermənistanın baş naziri ilə çəkilmiş fotoları da görəcəklər. Bəs əsgər analarının nə qədər izləyici ordusu var? Onların bir ordusu var - o da oğullarının həyatlarını əllərindən alıb" deyə Tevos Arşakyan öz yazısında qeyd edib.

***Rövşən NURƏDDİNOĞLU***

# Erməni xalqının bəlası - Paşinyan

## *Son sərsəm bəyanatları Nikolun kürsüyə "əlvida" deməsini tezləşdirəcək*

İşğalçı və quduzlaşmış Paşinyan "Qarabağ Ermənistanındır, nöqtə, vəssalam!" böyük qələtinin cavabı Azərbaycan Prezidentinin "NİDA!" cavabı Nikolu, nəinki öz ölkəsində, hətta bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsində cavab olmaqla yanaşı, həm də dünyadakı erməni havadarlarına da bir "düz yola gəlin" mesajı idi və bununla, dövlət başçısı bu məsələni bir daha təkrar çatdırdı: Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi bütün tərəflər üçün qəbuledilləndir".

Ancaq səbatsız və sərsəm Paşinyan hələ də "nida"nı anlaya bilmir, anlasa da, artıq gec olacaq. Bir məqamı da qeyd edək ki, vasitəçilər də torpaqların işğaldan azad edilməsinin başlıca məsələ olduğunu gün kimi bilirlər. Sadəcə olaraq, problemin həlli üçün onların ayrı-ayrı açarları mövcuddur və bu açarlarla onlar bir-birinin qıfılını aça bilmirlər. Məhz Paşinyanın anlamazlığının real cavabı "Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsi Paşinyanın onurğasına vurulan ağır bir zərbə olaraq birdəfəlik "nakaut" halına düşməsidir. Ən maraqlı məqam isə, Azərbaycan Prezidenti Qarabağ həqiqətini dünyaya Rusiya prezidenti Vladimir Putinin də dinləyicisi olduğu auditoriyadan bəyan edirdi. Çıxışdan bir gün qabaq isə, Rusiya xarici işlər naziri Sergey Lavrov Nikol Paşinyanı "Qarabağ Ermənistanındır və nöqtə" fikrinə görə qınamış, belə mövqeyin sülh prosesinə fayda gətirmədiyini bildirmişdi.

Lakin rəsmi Moskva Azərbaycan Prezidenti İlham Əliyevin analoji bəyanatına, daha doğrusu, kontur-cavabına ("Qarabağ Azərbaycandır və nida işarəsi!") heç bir neqativ reaksiya bildirmədi - nə Sergey Lavrov, nə də onun sözçüsü Mariya Zaxarova səviyyəsində. Bu da məntiqlidir. Çünki dünya birliyi, o cümlədən, Rusiya Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəkləyir. Prezident İlham Əliyevin çıxışında xatırlatdığı BMT TŞ-nin Qarabağa dair 4 qətnaməsində də ərazi bütövlüyü prinsipi öz əksini tapıb və Ermənistan işğalçı kimi göstərilib.



Ermənistanın siyasi isteblişmentində güclü təlaş yaradan məqam da elə budur. İrəvanın 1 nömrəli müttəfiqi sayılan Rusiyadan belə bəyanatın səslənməsi, üstəlik, ona rəsmi Moskvanın, Putinin, Lavrovun və Zaxarovanın susqunluq göstərməsi. Çünki susmaq razılıq əlaməti sayılır. Bu mənada, çıxış işğalçı ölkədə, haqlı olaraq, Bakının uğurlu diplomatik həmləsi kimi qiymətləndirilib. Paralel surətdə Paşinyan və onun xarici siyasəti ciddi tənqidə tuş gəlib.

Bu yerdə bir məqamı da vurğulamaq yerinə düşər. Yeri gəlmişkən, Azərbaycan Prezidenti bu günlərdə Qobuda köçkün qəsəbəsinin açılışı zamanı etdiyi çıxışında bir daha Soçidəki tezisi təkrarlayıb. Bildirib ki, sülh danışıqlarında Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıb, olmayacaq. "Dağlıq Qarabağ Azərbaycandır, nida işarəsi. Vəssalam" deyə Prezident İlham Əliyev əzəli torpaqlarımızda ikinci saxta erməni dövləti qurmaq sevdası ilə yaşayan ermənilərin arzusunu həmişəlik basdırıb. Onların, ilk növbədə də, avantürist erməni rəhbərlərinin, eləcə də, işğalçının başını sığallayan çevrələrin boşuna gözlədikləri barədə aydın təsəvvür yaradır.

**Dmitri Savelyev: "Rusiyanın Qarabağ məsələsi ilə bağlı mövqeyi prinsipial və dəyişməz qalır"**

Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev Prezident İlham Əliyevin "Valday" Forumundakı çıxışını təhlil edərkən və konfliktin həllində Rusiyanın rolundan danışaraq bildirib ki, Rusiyanın Qarabağ məsələsi ilə bağlı mövqeyi prinsipial və dəyişməz qalır: "Problemin həlli sırf sülh xarakteri daşımalıdır. Rusiya bu münaqişənin həllində inkişafa nail olmaq üçün bütün zəruri səyləri göstərməyə hazırdır".

D.Savelyev Ermənistanın Azərbaycan ərazisini qeyd-şərtsiz azad etməyə borclu olduğunu da söləyib: "Dağıdılmış və təhqir edilmiş Dağlıq Qarabağ işğaldan azad edilmiş, çiçəklənən Azərbaycan torpağına çevrilməlidir. Görün, 2016-cı ildə azad edilmiş ərazidə nə qədər işlər görülüb! Bu, onu göstərir ki, münaqişə beynəlxalq hüquqa müvafiq surətdə həll ediləndən sonra Dağlıq Qarabağı necə bir inkişaf gözləyir. Şübhəsiz ki, rusiyalılar Dağlıq Qarabağ ətrafındakı vəziyyətə laqeyd qala bilməzlər, çünki ölkəmiz ATƏT-in Minsk Qrupunun həmsədridir".

Beləliklə, işğalçı ölkədə baş verənlər, onu sübut edir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. Ona görə də, işğalçı Ermənistanın küçə təfəkkürlü rəhbərliyi, Paşinyan da sələfləri kimi, səbəbi qoyub, nəticələrlə uğursuz mübarizə aparır. Hər dəfə Paşinyanın sərsəm bəyanatları, xüsusilə də, sonuncu böyük qələti olan "Qarabağ Ermənistanındır, vəssalam!" sərsəm bəyanatının bədəlinə cavab "NİDA!" olmalı idi. Məhz Ermənistanın son günlərdəki durumu, onu bir daha göstərir ki, Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. Paşinyan da sələfləri kimi, səbəbi qoyub, nəticələrlə uğursuz mübarizə aparmamalıdır. Çünki yekun eyni olacaq, daha dəqiqi, daha pis... Yəni Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq!!!

***A.SƏMƏDOVA***

# Əli Kərimli zəif və qorxaq olduğunu bir daha nümayiş etdirdi



Piket çağırışı edib, özü gizlənməklə Əli Kərimli cəbhəçilərdən alət kimi istifadə etdiyini göstərdi. Bir qrup təxribatçı, öyrədilmiş, pozuculuq aktlarına meyilli AXCP sədri Əli Kərimlinin rəhbərlik etdiyi AXCP üzvünün küçələrə çıxıb, polislə qarşıdurmaya getməyə cəhd göstərməsi bütün siyasi prinsiplərin pozulmasına xidmət etdiyini göstərir. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ə.Kərimli piket çağırışı etsə də, özü gizlənməyə və sonradan sosial şəbəkələrə çıxıb hay-küy qaldırmağa cəhdlər göstərdi. Söhbət etdiyimiz müsahiblərimizin, birmənalı mövqeyi ondan ibarət oldu ki, Ə.Kərimli pozuculuğa cəhd etməklə, birbaşa xarici qüvvələrin sifarişlərini, istək və tələblərini yerinə yetirməyə çalışıb, amma asayiş keşikçiləri onun arzusunu gözündə qoydu.

### "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Əli Kərimliyə piketlər vasitəsi ilə təxribatlar törətməsinə imkan verilməyəcək"

- Birmənalıdır ki, Əli Kərimliyə və o tipli siyasət dəllallarına Azərbaycanın milli və dövlətçilik maraqları önəmli deyil. Onlar üçün başlıca məqam xarici maraqlı dairələrlə əməkdaşlıq etməklə, pul-para qazanmaqdır. Həm də Ə.Kərimli üçün maraqlı olan şey, xaricdən verilən sifarişləri yerinə yetirmək fonunda onların inamını qazanmaqdır. Təbii ki, əslində, onların məqsədləri aksiya keçirmək deyil, təxribatlar yaratmaqdır. Yəni onların istəkləri polislə toqquşma yaratmaq və bu toqquşmaları sosial şəbəkələrdə yayımlamaqla, xaricdəkilərə sifarişlərini yerinə yetirdiklərini göstərməkdir. Deməli olar ki, burada müxalifət tərəfindən öyrədilmiş adamlar məqsədli şəkildə qarşıdurma yaradırlar. Ə.Kərimliyə piketlər vasitəsi ilə təxribatlar törətməsinə imkan verilməyəcək. O və onun kimilər başa düşməlidir ki, kimliyindən asılı olmayaraq, hər bir vətəndaşın borcudur ki, qanunlara əməl etsin. Onlar isə qanunlara əməl etmək istəmirlər. Hər zaman xarici qüvvələrin və daxildə olan müxalifətin məqsədi ölkəmizdə nə isə bir xoşagəlməz vəziyyət yaratmaqdır. Amma onların nə istəməsindən asılı olmayaraq, heç vaxt məkrli məqsədlərinə çatmayacaqlar.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Əli Kərimli qaragüruhçuluqla məşğuldur"

- Bunların hal-hazırda etdikləri bütün hərəkətlər birmənalı təxribata yönəlmiş addımlardır. Bunu bir daha icazəli piket keçirmək adı ilə sübut etdilər. Qanunvericiliyə uyğun olaraq, piket keçirmək üçün 50 nəfərin müəyyən edilməsinə və piketin yerinin dəqiq təyin olunmasına baxmayaraq, bunlar şəhərin mərkəzində müxtəlif küçələrdə yürüş etməyə cəhd göstərmişlər. Həmçinin, piketin mahiyyətindən uzaq şüarlarla çıxış edərək, ictimai asayişi pozmağa çalışmaqdır. Təbii ki, bu zaman hüquq-mühafizə orqanları bunun qarşısını almağa çalışmışdılar. Lakin hüquq-mühafizə orqanlarının haqlı tələblərinə məhəl qoyulmamış təxribatçılığa əl atılmışdır. Məhz bunu təşkil edən Əli Kərimlinin də əsas niyyəti təxribat yaratmaq və bunu şouya çevirməkdir. Bu gedişləri yeni deyildir və biz dəfələrlə bu cür təxribatçı addımları bunlarda görmüşük. Hər dəfə də, aldadıb tora saldıqları vətəndaşları bundan zərər görmüşlər. Bu hadisələr fonunda isə, nə Əli Kərimli, nə də digərləri meydanda görsənməmiş, baş verən təxribatlardan sonra isə, publikaya müraciət edib, hay-küylə, qaragüruhçuluqla hakimiyyəti günahlandırmışlar. Aldatdıqları və təxribat törətməyə göndərdikləri insanların taleyi isə bunları heç vaxt maraqlandırmamışdır. Bunları maraqlandıran yalnız xarici havadarlarına verdikləri hesabat və bunun qarşılığında aldıqları maliyyə resursları olmuşdur.

### "QHT.az" saytının rəhbəri, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: "Piketdə xüsusi öyrədilmiş adamlar küçələrdə söyüş ritorikası ilə təbliğat aparırdılar"

- "Milli Şura" adlanan qurumun 8 oktyabr tarixli piketi və piketə aidiyyəti olmayan müxtəlif pozuculuq fəaliyyəti ziddiyyətli məqamları ilə diqqəti çəkir. Dövlət tərəfindən onlara yaradılmış imkandan qəti sürətdə istifadə etmək əvəzinə, pozuculuq hərəkətlərinə başladılar. Niyə "Milli Şura"nın rəhbərləri o, piketdə deyildi. İkinci tərəfdən heç bir siyasi təcrübəsi olmayan şəxs də, çox aydın analiz edə bilər ki, müxalifət piketə deyil, təxribat xarakterli planları yerinə yetirməyə hazırlaşmışdı. Bundan başqa, piketdə xüsusi öyrədilmiş adamlar küçələrdə söyüş ritorikası ilə təbliğat aparırdılar. Çox aydın şəkildə ictimaiyyətə hörmətsizlik nümayiş etdirməklə, söyüşlər söyür və toplumu təhqir edirdilər. Məqsəd isə polisi və adi vətəndaşları qarşıdurmaya təhrik etməkdən ibarət idi. Sual olunur, bəs niyə müxalifət piketə deyil, bu pozuculuq hərəkətinə üstünlük verir? Müxalifət sakitcə piket keçirilən yerdə öz tələblərini səsləndirsə, xaricə müraciət üçün əsas qalmayacaq. Belə olan halda, müxalifət üçün süni ajiotaj yaratmaq daha cəlbedicidir. Həm mühacir alveri, həm də guya siyasi partiyaların sıxışdırılması adı altında əlavə dəstək almaq imkanları yaranır. Başqa bir məqam isə, ondan ibarədir ki, bəzi xarici qüvvələr konkret olaraq, dinc aksiya deyil, qarşıdurma və kütləvi itaətsizliyi təşviq edən müxalifət arzulayanlar və yaxud müxalifətdən bunu tələb edirlər.

*GÜLYANƏ*

# Antimilli təfəkkürlü "mühacirlər"



***Belə bir sual yerinə düşərdi: "insan da bu qədər daşqəlbli olarmı?" Yəni bu, insanlara aiddir. Yaşadığımız mühitdə adlarını "müxalifətçi" qoyanların bu torpağın havasını udub, çörəyini yeyib sonra da güclü Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətlə beynəlxalq müstəvidə nüfuzunun daha da artdığını görüb, bu uğurları istəməyən bəzi xarici dairələrlə əlbir olub qrantlara satanlar, ancaq əxlaqsız və mənəviyyatsız iblislər ola bilər. Böyük satirik şairimiz Mirzə Ələkbər Sabirin "Daşqəlbli insanları neylərdin, İlahi" şeirində dediyi fikirləri başqa cür deməyimə görə məni bağışlasın. Böyük şairimiz belə demişdi:***

**Daşqəlbli insanlari neylərdin, İlahi?**
**Bizdə bu soyuq qanları neylərdin, İlahi?**

Mən bu insanları daşqəlbli yox, xalqına və dövlətinə xəyanətkarlıq edib özlərini satmaqla satılmağı da bacaranları iblis adlandırardım. Lənət olsun, Avropada "siyasi mühacir" adı altında sülənən əxlaqsızlara və mənəviyyatsızlara.

### Siyavuş Novruzov: "Xainlərə güzəşt olmamalıdır"

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov sözügedən məsələ ilə bağlı açıqlamasında bildirib ki, Vətən, xalq təəssübündən məhrum olan və Avropanın müxtəlif ölkələrində məskunlaşan "mühacirlər"in sosial şəbəkələrdə dövlətə və xalqa qarşı əxlaqsızcasına "qara piar" kampaniyasını davam etdirmələri, şübhəsiz, anti-Azərbaycan dairələrin, erməni lobbisinin "ənənəvi layihələr"inin növbəti epizodudur: "Həmımız yaxşı bilirik ki, anti-Azərbaycan dairələrin ölkəmizdə reallaşdırılan yerli və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsində, "sapı özümüzdən olan baltaları" tora salaraq, öz çirkin və məkrli oyunlarına alət edərək, respublikamızı hədəfə almaları, uzun illərdir ki, "ənənə" halını alıb. Anti-Azərbaycan dairələrin, erməni lobbisinin və onlarla işbirliyində olan milli satqınların- müxtəlif bəhanələrlə Qərbin ayrı-ayrı ölkələrində məskunlaşaraq, zibilxanalarda küllənən orduxanların, turalların, məhəmmədlərin, rafayılların, eləcə də, AXCP sədri Ə.Kərimlinin, "Milli Şura"nın rəhbəri C.Həsənlinin, qondarma "hüquq müdafiəçisi" Leyla və Arif Yunusların və onların tör-töküntülərinin, "yaldaşlar"ının, el arasında deyildiyi kimi, "fısları yatacaq". Bu xəyanətkarlar öz ağalarından aldıqları "yemlərini" nəhəng pitonlar kimi udaraq, bir müddət gizlinə çəkilərək, onu həzm etməklə məşğul olacaqlar. Azərbaycan əleyhdarlarının ikrah doğuran əməlləri bütün detalları ilə ortadadır. Onlar Azərbaycanın düşmənləridir. Bəs adını azərbaycanlı qoyaraq, onların dəyirmanına su tökən Vətən və millət dönüklərinin bu mənəviyyatsız, namərd əməllərinə nə ad vermək olar? Ölkəsinə, millətinə, şər-böhtan, təhqir yağdıran bu satqın "söyüş makinaları" Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli və digərləri pul, vardövlət toplamaq həvəsi milli kimliklərini unutmuş əxlaqsızlardır".

### Elşən Musayev: "Leyla Yunus kimilər Azərbaycanın deyil, Ermənistanın uğurlarına seviniblər"

Həyasızlığın həddinə bax ki, belə bir əxlaqsız Leyla Yunus Azərbaycanı cəbhə dövründə yeyib-talayıb, bu gün isə böhtan yağdırır. Cinayət bataqlığında eşələnən L.Yunus, sən o L.Yunus deyilsən ki, hər zaman Azərbaycana qarşı satqınlıqla məşğul olmusan? Millət vəkili Elşən Musayev bildirib ki, L.Yunus kimilər Azərbaycanın deyil, Ermənistanın uğurlarına seviniblər: "L.Yunus tək deyil, bu gün Azərbaycanda çoxlu sayda ona bənzərlər var. Xarici dairələr həmişə Azərbaycanda Leyla Yunuslar yetişdirməyə çalışıb. Biz yeni L.Yunusların yetişməməsi üçün həssas olmalıyıq. Bələləri Azərbaycana qarşı ermənidən daha betərdir".

Bax, bu qədər səbirli olmaq olmaz! Nə qədər alçaq və vicdansız olamalısan ki, Vətənin çörəyini yeyəsən, sonra da başlayasan satqınçılıq etməyə. "Çörəyi dizinin üstündədir" - bax, belələrinə deyirlər. Bir də satqın və Vətən xainindən nə gözləmək olar? Leyla Yunus kimilər dövlət tərəfindən əfv olunsalar da, bu gün yenə də öz əxlaqsızlıqlarını nümayiş etdirirlər. Bax budur, onların əxaqsızlığı, mənəviyyatsızlığı, nəhayət, erməni xislətliliyi. Çünki Leyla Yunusun mahiyyəti, xisləti budur. Bu adamın genetik erməni bağlılığı var və deməki, həmin genetika əsl gerçəyi, ədaləti, azərbaycanlı-erməni qarşıdurması fonunda, faktiki reallığı inkar etmək gücündədir.

*Rəfiqə HÜSEYNOVA*

# "Bakcell" jurnalistləri mobil telekommunikasiyanın son həllər və yenilikləri ilə tanış edib




KİV nümayəndələri üçün növbəti seminar keçirilib. Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti jurnalistlər üçün növbəti dəfə ikigünlük seminar keçirib. "Mobil telekommunikasiya sənayesində son həllər və yeniliklər" mövzusunda keçirilimiş seminara ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-dək jurnalist qatılıb. Ardıcıl olaraq altı ildir ki, təşkil olunan ənənəvi seminarın əsas məqsədi jurnalistləri mobil telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, innovasiyalar və son tendensiyalar barədə maarifləndirməkdir. Seminar mobil telekommunikasiya üzrə məlumatlılığın və bu sahədən yazan jurnalistlərin peşəkarlığının artırılmasına xidmət edir.

Qalaaltıda keçirilən seminarda təlimçi qismində iştirak edən "Bakcell"in aparıcı ekspertləri "Mobil rabitənin əsasları", "Telekom sahəsində "Big data": Tətbiqlər və son tendensiyalar", "Mobil şəbəkənin inkişafı", "Tədbirlər və şəbəkənin hazırlığı", "Müştəri xidmətləri texnologiyaları", "Müştərilərlə əlaqələrin idarə edilməsi", "Loyallıq Proqramları" və "Əşyaların İnterneti" kimi mövzuları əhatə edib. KİV nümayəndələrinə müasir mobil telekommunikasiya sənayesi və "Bakcell" şirkətinin təqdim etdiyi texnologiya və xidmətlər barədə ətraflı məlumat verilib. Biri birindən maraqlı məruzələr və təqdimatlarla yadda qalmış seminar zamanı "Bakcell" nümayəndələri jurnalistlərin telekommunikasiya sənayesi və yeni texnologiyalara aid suallarını cavablandırıb, fikir mübadiləsi və müzakirələr aparıblar.

# Müsavatda tarix yenidən təkrarlanır

## *Yenə sərt və amansız ittihamlar, təhqirlər...*

***Yenə Müsavatın illərlə keçirmək istədiyi ötən qurultayı 2014-cü ildə baş tutdu. Tutmasaydı yaxşı olardı. Çünki təhqirlər, ittihamlar, parçalanmalar. İndi də oktyabırın 12-nə təyin olunan qurultayın 13-nə keçirilməsi bildirilir. Partiyada başqanlıqla bağlı baş verən proseslər, aydın şəkildə göstərir ki, növbəti qurultaydan sonra Müsavat ya yenidən parçalanacaq, ya da yeni başqanla yoluna davam edəcək.***

Bunu qurultay ərəfəsində daha aydın görmək olur. 25 ildir "müxalifət" adı ilə özlərini müxalifətçi adlandıranlar elə eyni düşüncə və eyni təfəkkürdədirlər. Yəqin ki, Müsavatın sonuncu qurultayından sonra baş verən qalmaqallar və partiyadaxili narazılıqlar hamının yadındadır. O da yadda qalıb ki, əvvəlki qurultay zamanı başqanlığa namizədlər bir-birilərini qurşaqdan aşağı təhqirlərə və "xoruz səsi eşitməyən" söyüşlərə qonaq edirlər. Bu problemlərin baş verməsinə əsas səbəb isə, sabiq başqan İsa Qəmbərin öz yerini açıq-aydın şəkildə Arif Hacılıya təhvil verməklə, müsavatdaxili problemlərin tükənmədiyini, əksinə, artdığını isbatladı.

### Müsavatda güzəştsiz rəqabət

Sabiq başqan İ.Qəmbərin partiyanın oktyabrın 13-nə təyin edilmiş qurultayına bir neçə gün qalmış "Facebook"da paylaşdığı statusla başqanlığa namizədlər arasında bir tufan qoparıb ki... Xüsusilə də, partiya üzvlərini A.Hacılıya səs verməyə çağırışı namizədlərin İ.Qəmbərə qarşı sərt və təhqirli sözlər deməsinə səbəb olub.

Müsavat başqanlığına namizəd Yadigar Sadıqlı bildirib ki, son 5 ildə partiyanın idarə olunmasını qənaətbəxş hesab etmir: "Müsavat partiyası bu illər ərzində özünün aparıcı müxalifət partiyası statusunu itirib. Bunun da əsas səbəbi idarəetmədəki yanlışlıqlardır. Partiya rəhbərliyi Müsavatdakı qüvvələri birləşdirib, birgə mübarizə aparmaq əvəzinə, daxili intriqalara daha çox meyil edib. Bu, o A.Hacılıdır ki, 2014-cü ildə elan etmişdi ki, mübarizəni müxalifət daxilində deyil, hakimiyyətə qarşı aparacaq. Reallıq isə, ondan ibarət oldu ki, Müsavat rəhbərliyi hakimiyyət və digər partiyalardan çox, ona rəqib olacaq insanlara qarşı mübarizə aparır. Bu da, nəticədə, Müsavat partiyasına ictimai marağın azalmasında özünü göstərir. İnsanlar partiya rəhbərliyinin addımlarına laqeyd yanaşırlar. Müsavat hazırda aparıcı statusunu itirib və bu gün heç də ən yaxşı dövrünü yaşamır. Hesab edirəm ki, Arif Hacılı bu vəziyyəti dəyişə biləcək gücdə deyil, bunun üçün potensialı yoxdur, onun şəxsi keyfiyyətləri də buna imkan vermir. Ona görə də, Müsavatın təkrar ayağa qalxması, dirçəlməsi və aparıcı partiyaya çevrilməsi üçün yenilik lazımdır və partiya başqanı dəyişilməlidir".

Y.Sadıqlı ötən qurultayda A.Hacılının başqan seçilməsindən sonra digər namizədlərin partiyanı tərk etmələrinin təkrarlanmaq ehtimalına da münasibət bildirib. O, başqan seçilməyəcəyi təqdirdə, partiyadan getməyəcəyini bildirib: "Seçkidə qalib gələcəm. Ancaq uduzsam, idarəetmədə iştirak etmək fikrim yoxdur. Sıravi üzv kimi qalacam. Başqalarına gəldikdə isə, heç kimi partiyadan çıxarmaq və qovmaq fikrim yoxdur. Ola bilər ki, kimlərsə gedəcək. Mənim başqan seçilməyimlə kimlərsə gedəcəksə, bu, onların öz işi olacaq".

O, Müsavatın keçmiş başqanı İ.Qəmbərin yenidən partiya rəhbərliyinə qayıdacağı haqda məlumatlara da münasibət bildirib: "İsa bəyin belə bir addım atacağını gözləmirəm. Yaxınlarda oxudum ki, İsa bəy bu versiyanı inkar edib".

Tofiq Yaqublu başqan seçkilərindən gözləntiləri barədə bunları deyib: "Qalib gəlməsəm, partiyadan getmək fikrim yoxdur. Düşünürəm ki, qurultay keçiriləcək, müsavatçılar yeni başqan seçəcəklər. Bu qurultayda heç bir təlatüm gözləmirəm. Hər şey sakit məcrada keçəcək. Sözsüz ki, seçki debatları gərgin ola bilər. Bu da, təbiidir".

Ötən qurultaydan sonra baş verən qopmalara toxunan Yaqublu bildirib ki, Müsavatı "köhnə günlər"ə qaytarmaq niyyəti yoxdur:

"Müsavat partiyasını irəli aparmaq və daha güclü Müsavat görmək istəyirəm. Başqan olsam, partiyanın möhkəmlənməsi, sıralarının genişlənməsi üçün nə mümkündür, edəcəm. Ayrılıb gedənlər özlərinə təşkilat qurublar. Məncə, onlar artıq öz yollarını seçiblər. Ancaq gələrlərsə nə yaxşı, gəlməzlərsə də yenə nə yaxşı".

İ.Qəmbərin yenidən başqanlığa qayıtmaq ehtimalına münasibət bildirən T.Yaqublu onun namizəd olmayacağını deyib: "Belə bir şey olsa, düşünərəm. İ.Qəmbərin namizdəliyi tamam fərqli mənzərə yaradar. İsa bəy kifayət qədər tanınmış siyasətçidir. Ancaq o özü, birmənalı olaraq, deyib ki, namizədliyini irəli sürməyəcək".

Görünür, İ.Qəmbər qurultayərəfəsi öz hiyləgər gedişini çıxdaş etmək istəyir. Bu, həmişə belə olub. Ona da "Lisa" deyərlər, "Namizədliyimi verməyəcəyəm" desə də, sonda hadisələrin tamam başqa səmtə gedəcəyi bəlli olacaq. Beləliklə, göründüyü kimi, "İ.Qəmbər getdi, Müsavat dağıldı" prinsipi sabiq başqana hava-su kimi lazımıydı və o, yenidən başqan seçilmək üçün bu amili özünə qalib olaraq seçib. Bunu isə zaman göstərəcək.

***Rəfiqə HÜSEYNOVA***

# Başqanlığa namizədlərin ittihamları başladı

## *Yadigar Sadıqlı: "Müsavatın çöküşü davam edəcək"*

Müsavatın eks-başqanı İsa Qəmbərin partiyanın qarşıdan gələn qurultayında Arif Hacılını dəstəkləyəcəyi, eləcə də, müsavatçıları da ona səs verməyə çağırması birmənalı qarşılanmayıb. Başqanlığa digər namizəd Yadigar Sadıqlı belə bir çağırışın yolverilməz olduğunu bildirib və A.Hacılının yenidən başqanlığa seçiləcəyi təqdirdə, bu təşkilatın daha dərin iflasa uğrayacağı proqnozunu verib. Belə ki, Y.Sadıqlı İ.Qəmbərin mövqeyindən təəssüfləndiyini bildirib və qeyd etdiyinə görə, məlum oldu ki, neqativ münasibət partiyaya deyil, onun mövcud rəhbərliyinədir.




### Başqanlığa namizəd: "Arif Hacılıya qalib gəlmək olardı, lakin İsa Qəmbərlə tandemində qalibiyyət çox müşkül görünür"

"Təəssüf ki, partiyanın önəmli ismi İsa Qəmbərin açıqladığı mövqe belə bir mümkün dəyişikliyin baş tutması ehtimalını xeyli aşağı salır" deyə bildirən Y.Sadıqlı İ.Qəmbərin partiyada nüfuzunun qaldığını etiraf etsə də, qeyd edib ki, hətta bir çoxları üçün onun mövqeyi həlledicidir. Bu baxımdan, o, rəqibi Arif Hacılıya qalib gəlməyin çətin olduğunu deyib: "Arif Hacılıya qalib gəlmək olardı, lakin İsa Qəmbərlə tandemində qalibiyyət çox müşkül görünür".

### "Bəlkə..." sualı qarşısında əzab çəkmək istəmirəm"

O öz iddiasından geri dönməyəcəyini və İ.Qəmbərin A.Hacılını dəstəkləməsinə rəğmən, sona qədər namizəd olacağını bəyan etməklə yanaşı, eks-başqanın bu dəfə də mövqeyini dəyişməyəcəyini, bu mövqenin onun üçün gözlənilməz olmadığını deyib: "Mübarizə aparıb qalib gəlməyə çalışacam. Çünki Arif Hacılının başqanlığı dövründə Müsavatın çöküşü davam edəcək. O zaman mən, heç olmazsa, "bacardığımı etdim" deyə vicdan rahatlığı ilə yaşamaq istəyirəm, "bəlkə..." sualı qarşısında əzab çəkmək istəmirəm. İsa bəyin mövqeyi mənim üçün gözlənilməz olmadı".

Xatırladaq ki, T.Yaqublunun tərəfdarları sosial şəbəkələrdə onu dəstəkləyən rəylər yazmaqla, İ.Qəmbərin tərəf tutmasını partiyanın parçalanacağı ilə əlaqələndiriblər.

***RÖVŞƏN***



**Təhmasib Novruzov**

# *Dərbənd Alban məbədinə erməni "sevgi"si!*

***Ermənilərin, daha doğrusu, xristian qıpçaq türklərinin adını oğurlamış hayların tarixi saxtalaşdırmalarının çox şahidi olmuşuq. Bəlkə də, elə ona görədir ki, artıq son zamanlar hayların bu cür saxtalaşdırma oyunlarını adi hal kimi qəbul edir və səsimizi çıxarmağa belə can atmırıq. Bu bədnam qaraçı tayfasının da istədiyi elə budur.***

O qədər şər-böhtan, saxtalaşdırma əməlləri törədirlər ki, bizim üçün bu hal adiləşsin və biz də səsimizi çıxarmayaq. Hərdən düşünməyə məcbur oluruq ki, deyəsən, haylar bu mənada, istəklərinə nail olurlar. İndi mən deyim, baxın görün belə düşünməkdə haqlıyam, ya yox? Avrasiya materikində yaşayan elə bir xalq yoxdur ki, bu qaraçı etnos haqqında, onların bəşəriyyətin ən iyrənc etnosu olması haqqında fikir söyləyən mütəfəkkiri olmasın. Amma mənim ən xoşuma gələn fikir K.Marksın və onun məsləkdaşı F.Engelsin yazdıqlarıdır. Heç bir tarixi olmamasına rəğmən, bu etnosun müxtəlif millətlərin yaratdıqlarını özününküləşdirmə istəyini qeyd edən hər iki mütəfəkkir, ermənilərin, bu baxımdan, xəstə təxəyyüllü olmalarını da vurğulayırlar. Bizlər bunun dəfələrlə canlı şahidləriyik və bu baxımdan ən böyük "oğurluq"lara məruz qalan Azərbaycan türkləridir desək, yanılmarıq. Elə bu əməllərinə görə, hindfars ərazilərindən Avropaya, Balkanlara, ordan Felikiyaya, Felikiyadan Ağrı dağı ətəklərinə, nəhayət, son düşərgə yeri kimi Qafqazlara qovulan haylar, həmin xəstə təxəyyülündən burda yararlanmağa başladılar və nə yazıqlar ki, xristian dünyasının dəstəyi ilə bizim ərazilərimizdə istəklərinə nail olmağa başladılar. Nəticədə, dünyanı fırlana-fırlana, məhz bizim ərazilərimizdə özlərinə, tarixdə ilk dəfə olaraq, dövlət qurmağa və tarixi abidələrimizi də mənimsəməyə nail oldular. İndi isə, artıq bu ərazilərdə özlərini möhkəmləndirmiş hesab edərək, İran, Türkiyə, Gürcüstan, nəhayət, tarixən Azərbaycan xalqının ulu babalarının yurd yeri olan dəmir qapı Dərbənddə tarixi abidələri özününküləşdirməyə başlamışlar. Sən demə, ulu babamız olan Oğuz xaqanın hakimiyyəti altında olan, bütün dünyanın bizim ulu babamız kimi qəbul elədiyi, "Kitabi-Dədəm Qorqud" dastanlarının baş qəhramanı olan Dədə Qorqudun uyuduğu Dərbənd də tarixi erməni-hay yurduymuş və burda ən qədim katolik kilsəsini də onların babaları (Gorlarına...) inşa ediblərmiş. O boyda Rusiyada da, Dağıstanda da bir vicdanlı adam tapılmadı ki, bunlara tarixi təhrif etməkdə mane olsun. Dərbənddəki həmin abidənin erməni-hay kilsəsi deyil, Alban məbədi olması və türklərə məxsus olması bütün dünyaya məlum olmasına rəğmən, həmin abidəni erməni katolik abidəsi kimi, məhz ermənilərin bərpa etməsinə Rusiyanın və Dağıstanın alimlərinin susması, həm də Rusiya televiziya kanallarında abidənin erməni abidəsi kimi təqdim edilməsi, bizi bu cür düşünməyə vadar edir. Doğrudanmı o boyda Rusiyada vicdanı olan bir tarixçi-etnoloq yoxdur ki, tarixin belə kobud təhrifinə səsini qaldırsın? Yaxşı, tutaq ki, onlar vicdanlarını siyasətə qurban veriblər. Bəs bizim alimlərimiz və mütəxəssislərimiz nədən susur? Dövlət qurumlarını anlamaq çətin deyil. Həmin ərazi, indiki halda, başqa dövlətin - Rusiya kimi dünya gücünün ərazisidir və dövlət səviyyəsində bu fakta reaksiya vermək diplomatik baxımdan, müsbət qarşılanmaz və qonşu dövlətin daxili (?) işinə müdaxilə kimi qarşılana bilər. Bəs alimlərimiz, ziyalılarımız, ictimai qurumlar, özünü millət təəssübkeşi kimi gözlərə dürtməyə çalışan siyasi qurumlarımız? Bu, bir həqiqətdir ki, bizlərin səsi eşidilsə də, eşidən qulaqları dartacaq kifayət qədər hayplərəst dünya gücləri var. Ancaq belədə, biz gələcək zaman üçün, haqqın, ədalətin bərqərar olunacağı dünyada sözümüzü keçirtmək üçün də olsa, səsimizi qaldırmalı deyilikmi? Əminəm ki, o zaman uzaqda deyil. Ya haqqa, ədalətə arxa çevirən bu dünya dağılıb məhv olacaq, ya da bir güc ortaya çıxıb (o gücün ortaya çıxacağı zaman yetişməkdədir), dünyaya ədalət gətirəcək. Bax, o zaman sözümüzün eşidilməsi üçün bu gün susmalı deyilik. Susmayaq, susmayaq ki, ulularımızın yaratdıqları tarixə sahib çıxa bilək, ən azı, şəraitin yetişəcəyi zaman üçün zəmin yarada bilək. Allah bu yolda bizə təpər versin. AMİN!..

# İnteqrasiya prosesi və milli azlıqların hüquqları

***Milli azlıqların yığcam yaşadıqları Lənkəran şəhəri, Astara, Balakən, Şabran, Gədəbəy, Xaçmaz, İsmayıllı, Qax, Qəbələ, Qusar, Lerik, Zaqatala, Masallı rayonlarında fəaliyyət göstərən 41 uşaq musiqi və incəsənət məktəbində 1 mindən çox uşaq müxtəlif ixtisaslar üzrə təhsil alır. Azərbaycandakı milli azlıqların mədəni birlikləri ilə əməkdaşlığı əlaqələndirmək məqsədi ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi nəzdində Mədəni Müxtəliflik üzrə Koordinasiya Şurası yaradılmışdır.***

Kürd, ləzgi, talış, gürcü, rus və erməni dillərində müntəzəm yayımlanan radio verilişləri dövlət büdcəsi hesabına maliyyələşdirilir. Ondan artıq milli azlıq dillərində əlifbalar, tədris proqramları, digər dərsliklər, məktəbli lüğətləri və s. ədəbiyyat dövlət hesabına çap edilir və pulsuz olaraq yayılır.

Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri rəhbər vəzifələrə təyin olunurlar, yüksək fəxri adlara, Prezident mükafatlarına və Prezident təqaüdlərinə layiq görülürlər. Respublika hökumətində, parlamentdə, mərkəzi icra strukturlarında, o cümlədən, milli azlıqların sıx yaşadıqları bölgələrin rəsmi dövlət strukturlarında və yerli özünüidarə orqanlarında milli azlıqların nümayəndələri geniş təmsil olunmuşlar. Təkcə bir faktı göstərmək kifayətdir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində, bir sıra yüksək vəzifələr də daxil olmaqla (idarə və şöbə rəisləri səviyyəsində), çalışan əməkdaşların 1000 nəfərindən çoxunu (4%-ə qədər) milli azlıqların nümayəndələri təşkil edir (ləzgilər, ruslar, latlar, kürdlər, avarlar, tatarlar, yəhudilər və digərləri).

Azərbaycanda yeni şəxsiyyət vəsiqələrində etnik mənsubiyyətlərin göstərilməməsi Azərbaycan Respublikası vətəndaşlarının, o cümlədən, milli və yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən "Dövlət Proqramı", "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" kimi sənədlər gənclərin sosial müdafiəsini təmin edir, onların cəmiyyət həyatında daha fəal iştirakı üçün əsas yaradır.

Cəmiyyətə inteqrasiya olunmaqda çətinlik çəkənlərin də tam həyata cəlb olunması əsas məsələlərdəndir. Belə adamların sırasına əlillər, uşaq evlərinin, qapalı tipli təhsil müəssisələrinin yetirmələri, sosial-təhlükəli vəziyyətdə yaşayanlar, zorakılıq qurbanları və s. daxildir. Dövlət həmin şəxslərə yardım etməklə, onların həyat şəraitinin çətinliklərinin dəf olunmasına kömək edir, gənc insanların uğursuzluq əlamətinə görə bir qrupda birləşdirilməsinin, ictimai şüurda müxtəlif fobiyaların inkişafının qarşısını alır.

Bu problemin həllində dövlətlə yanaşı, səhiyyə, təhsil və incəsənət sahəsində bir çox sosial proqramlar həyata keçirən Heydər Əliyev Fondunun rolu da çox böyükdür.

Ölkə büdcəsinin xərclər hissəsinin böyük bir qismini dövlət sosial sahəyə sərf edir. 2008-ci ilin sonlarınadək, Azərbaycan Respublikasında pensiyaların aşağı həddinin yaşayış minimumuna çatdırılması bir vəzifə kimi qoyulmuşdur. Bütün bunlar, bütövlükdə, Azərbaycanda vətəndaş inteqrasiyasının bərqərar olmasına yönəldilmişdir.

Ümumən Azərbaycan Respublikasında vətəndaş inteqrasiyası prosesinin aşağıdakı istiqamətlərdə aparıldığını söyləyə bilərik:

X Etnik azlıqların dövlətin və cəmiyyətin həyatında yaxından iştirakı;



X Etnik azlıqların doğma dillərinin, mədəniyyətlərinin, dinlərinin qorunması;

X Etnik azlıqların mədəni birlikləri ilə əlaqələri tənzimləmək üçün koordinasiya şurasının yaradılması;

X Etnik azlıqların hüquqlarının beynəlxalq hüquq baxımından qorunması;

X Regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması;

Məşğulluq probleminin, həyat şəraitinin yaxşılaşdırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsi.

Qonşularla xoş münasibət və milli azlıqların hüquqlarının qorunması hazırkı anın tələbi olaraq müasir Avropanın da qarşısında duran əsas vəzifə və çağırışdır. Bu gün mühüm problemlərdən biri çoxluğun azlıqla münasibətləri, "özününkü-özgə" qarşıdurmasının destruktiv qüvvəsinin zəifləndilməsidir. Məqsəd "özgəyə" çoxluq üçün təhlükə törədən düşmən kimi münasibət bəslənilməməsinə nail olmaqdır.

Mərkəzi və Şimali Avropanın hər bir ölkəsində etnik azlıqların vəziyyəti unikaldır, etnodil probleminin həll üsulları isə, hər bir dövlətdə özünəməxsusdur. Bəzi ölkələrdə regional muxtariyyətə, bəzilərində isə etnomədəni muxtariyyətə üstünlük verilmişdir.

İsveçrənin polietnikliyi hər kəsə məlumdur. Bu ölkənin yerli əhalisinin 65%-i alman dilində, 18%-i fransız dilində, 10%-i italyan dilində, 1%-dən azı isə retoroman dilində danışır. İlk üç dil dövlət dili statusuna malikdir. Hər hansı dövlət məmuru və əhalinin əksəriyyəti, ən azı, iki dil bilir, bəziləri isə, hətta hər üç dildə danışır.

Retoromanlar isə İsveçrənin I kantonu Qraubuyundendə kompakt yaşayan yerli əhalidir. Onların hüquq və mədəniyyətlərinin qorunması üçün bu ölkənin hökuməti retoroman dilini "İsveçrənin milli dili" elan edən xüsusi qanun qəbul etmişdir. Hakimiyyət bu dilin qorunması üçün bütün tədbirləri görür, o cümlədən, tele və radio verilişlər hazırlanır, bu dildə dövri mətbuat nəşr olunur, məktəblərdə bu dil tədris edilir.

Avstriyada xorvat və slovenlərin hüquqları bu ölkə ilə Xorvatiya və Sloveniya arasında bağlanmış ikitərəfli müqavilə əsasında qorunur. Avstriya Respublikasının beş rəsmi dinindən biri də islamdır.

Azərbaycanda yaşayan digər dinlərdən olan xalqların hüquqları heç vaxt pozulmamış, onlar həyatlarında antisemitizmin nə olduğunu heç zaman bilməmişlər. Dünyada elə ölkə yoxdur ki, dini mərasimlərdə həm müsəlman, həm xristian, həm də yəhudi icmalarının nümayəndələri bir yerə toplaşsın. Bunu, ancaq Azərbaycanda görmək mümkündür. Hətta xırda dini icmalar da dövlətin diqqətindən kənarda qalmır.

Ümummilli Lider Heydər Əliyev ölkəmizdə heç vaxt dini ayrı-seçkiliyə yol verilməyəcəyini bəyan edirdi: "...Heç vaxt yol verməris ki, digər millətdən, digər dini etiqaddan asılı olan adamlar - islam dinindən və Azərbaycan millətindən olmayan adamlar hər hansı sıxışdırılmaya məruz qalsınlar".

2001-ci ilin mayında Azərbaycana ilk dəfə səfərə gələn Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi də keçirdiyi görüşlərdə Azərbaycanda dini tolerantlığın səviyyəsinin yüksək olduğunu qeyd edirdi. Ölkəmizdə müxtəlif dinlərə tapınan insanların sülh şəraitində yaşadıqlarını təsdiq edən II Aleksi Ulu Öndər Heydər Əliyevlə görüşdə ölkəmizdə olan dini tolerantlığa görə Ona minnətdarlığını bildirmişdi: "Ənənəvi dinlərin fəaliyyətinə eyni dərəcədə diqqət yetirdiyinizə və qiymət verdiyinizə görə Rus Pravoslav Kilsəsi adından sizə təşəkkürümüzü bildirmək istərdik".

2002-ci ilin mayında isə, Azərbaycana tarixi səfər edən Roma Parası II İohann Pavel də ölkəmizdə dini dözümlülüyün olduğunu, bütün dinlərin sülh şəraitində yaşadığını və ayrı-seçkiliyin olmadığını bəyan etmişdi.

22 iyun 2004-cü il tarixdə Fridrix Nauman Fondunun (Almaniya), "Vətəndaş cəmiyyəti uğrunda" müstəqil məsləhətçi mərkəz (Azərbaycan) və "Münaqişələr və danışıqlar üzrə beynəlxalq mərkəz" (Gürcüstan) və Amerikanın Yəhudi Komitəsinin birgə təşkil etdiyi "Cənubi Qafqazda tolerantlığın formalaşmasında islamın rolu" mövzusunda seminarda çıxış edən Almaniyanın Azərbaycandakı keçmiş səfiri Klaus Qrevlixin qeyd etdiyi kimi, "Bu gün Azərbaycanda dinlər arasında yaranan dözümlülük və interantlıq münasibətləri hamı üçün, bütün Avropa ölkələri üçün pozitiv bir misal ola bilər. Azərbaycanın yaratdığı dövlət-din münasibətləri modelini artıq ixrac etməsi mümkündür. Bu, sizin sərvətinizdir".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoruz***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



# YAP Şəmkir rayon təşkilatının şura iclası keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının şura yığıncağı keçirilib. Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev cari ilin sonunda növbəti 5-ci bələdiyyə seçkiləri keçiriləcəyini vurğulayıb. Bildirib ki, bütün seçki kampaniyalarına ciddi hazırlaşan YAP bu il də bu fəallığını nümayiş etdirir: "Seçkilərə hazırlıqla əlaqədar YAP İcra Katibliyi tərəfindən müəyyən tövsiyə və tapşırıqlar verilib. Partiyanın bütün rayon təşkilatları kimi, YAP Şəmkir rayon təşkilatı da bu tövsiyə və tapşırıqlara və qəbul olunmuş müvafiq qərarlara uyğun addımlar atır".***

Rayon təşkilatının sədri, həmçinin, bildirib ki, seçkilər yaxınlaşdıqca, müstəqil Azərbaycanın inkişafını istəməyən qüvvələr dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq, ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışırlar: "Azərbaycan gücləndikcə daxildəki "5-ci kolon" və xaricdəki "siyasi mühacir" adı ilə fəaliyyət göstərən satqınlar ölkəmizə qarşı şər-böhtan kampaniyasını daha da böyüdürlər. Onlar xaricdəki antiAzərbaycan mərkəzlərin sifarişlərini yerinə yetirərək, alətə çevrilirlər. Azərbaycan cəmiyyəti yetkin, intellektual cəmiyyətdir və bu kimi dairələr cəmiyyətimizdə dəstək qazana bilməyəcəklər. Xalqımız həmin dairələrin əməllərini qətiyyətlə pisləyir".

Yığıncaqda vurğulanıb ki, bu ilin dekabr ayında keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar YAP Şəmkir rayon Seçki Qərərgahı və təbliğat-təşviqat qrupu üzvlərinin siyahısı təsdiq olunduğu, enyi zamanda, bir sıra məsələlərə baxılaraq, müzakirə edildiyi və müvafiq qərarlar qəbul olunduğu vurğulanıb.

***RƏFİQƏ HÜSEYNOVA***

**BAŞSAĞLIĞI**

**Ramiq Muxtar ailəsi ilə birlikdə əməkdar mədəniyyət işçisi Məmməd Hümbətova və bacısı oğlu İntiqama**

**Gülsabah xanımın**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

# "Qarabağ Azərbaycandır!"

## *Pirallahı Gənclər Mərkəzində bu şüarla tədbir keçirilib*

Pirallahı Gənclər Mərkəzində "Qarabağ Azərbaycandır!" şüarı altında tədbir keçirilib. Tədbirdə YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov çıxış edərək bildirib ki, Qarabağ münaqişəsi başlayandan bu günə qədər, heç zaman səngiməyən vətənpərvərlik əhval-ruhiyyəsi son illərin ən yüksək pilləsinə yüksəlib: "Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın münaqişəni ədalətli şəkildə nizamlamaq, torpaqlarımızı qeyd-şərtsiz geri qaytarmaq əzminə və qabiliyyətinə inamı qat-qat artıb. Prezident İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında "Qarabağ Azərbaycandır!" səsləndirməklə, qeyd olunan dəyərin milli statusunu daha da yüksəltmiş oldu".



H.Şikarov bildirdi ki, kəndlərdə, şəhərlərdə, idarə, müəssisə və təşkilatlarda böyüklü-kiçikli hamı "Qarabağ Azərbaycandır!" deyir. Eyni zamanda, bildirildi ki, təxribat törətmək, sabitliyi pozmaq, ara qarışdırmaq niyyəti ilə küçələrə çıxıb, yersiz çağırışlar edənlərin xalqdan və onun ideyalarından nə qədər uzaq düşdüyü bu günlərdə daha qabarıq görünür: "Sanki onlar bu ölkənin vətəndaşı, bu millətin övladları deyil. Açığı, belə bir mənzərəni görmək həm təəssüfləndirici, həm də utandırıcıdır. Təsəlli verən odur ki, xalqdan ayrı düşüb



fərqli, eyni zamanda, zərərli maraqların daşıyıcısı olanların sayı çox deyil. "Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən "Milli Şura"ya piketin keçirilməsi ilə bağlı icazənin verilməsi ölkəmizdə insan hüquqlarına, sərbəst toplaşmaq azadlığına həssaslıqla yanaşıldığının göstəricisidir" deyən H.Şikarov onu da bildirdi ki, ötən əsrin 90-cı illərin psixologiyası ilə yaşayan bu şəxslər müəyyən yollarla qanuna tabe olmayaraq, küçədə polisə müqavimət göstərməyə, təhqiramiz ifadələr işlətməklə çaxnaşma yaratmaq və ictimai asayişi pozmaq istədilər. YAP Pirallahı rayon təşkilatı GB-nin sədri Rüfət Əhmədov isə çıxışında bildirib ki, "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ Azərbaycandır!" bəyanatı cəmiyyətdə böyük ruh yüksəkliyi yaradıb. Bütün ictimaiyyət bu fikirləri qürurla dinləyib. Prezident İlham Əliyevin çıxışı, bir daha göstərdi ki, Azərbaycan öz prinsipial mövqeyini daim inamlı şəkildə müdafiə edəcək. Tədbirdə çıxış edənlər, qeyd etdilər ki, "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı Prezident İlham Əliyevin dərin məzmunlu çıxışı və səsləndirdiyi bəyanatlar ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi istiqamətində atılmış növbəti düşünülmüş addım oldu.

***Rövşən RƏSULOV***

# YAP Samux rayon təşkilatında görüş keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının akt zalında təhsil şöbəsi ərazi ilk partiya təşkilatının üzvləri ilə görüş keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Tədbirdə çıxış edən YAP Samux rayon təşkilatının təhsil şöbəsi ərazi ilk partiya təşkilatının sədri Gülağa Hüseynov bildirib ki, Yeni Azərbaycan Partiyası xalq üçün, Azərbaycanın gələcəyi üçün yaradılıb: "Ulu Öndər Heydər Əliyevi xalqın təkidli tələbi ilə Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə ölkədə yaranmış qardaş qırğınının qarşısı alınaraq, ölkəni bütün təhlükələrdən xilas etdi".



G.Hüseynov onu da bildirib ki, Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində, Azərbaycan bütün sahələrdə mühüm nailiyyətlər əldə edib. Tədbirdə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov çıxış edərək, bildirib ki, bu gün sosial şəbəkələrin imkanlarından düzgün olmayan şəkildə istifadə edilir: "Bu imkanlardan istifadə olunaraq, cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlərin arxasında bəzi xarici dairələrin pulla ələ aldıqları "mühacir"lərdən istifadə edirlər. Həmin insanları maliyyələşdirənlər sırasında erməni lobbisi xüsusi yer tutur. YAP onların bu böhtanlarına susmamalı və öz tutarlı cavablarını verməlidir". Tədbirdə təhsil işçilərindən Leyla Əliyeva, Qarayeri 2 saylı tam orta məktəbin müəllimi Jalə Nəsibova, Yuxarı Ağasıbəyli tam orta məktəbun müəllimi Əfqanə Umani, Sərkar kənd tam orta məktəbin müəllimi Günel Əhmədova çıxış edərək, son illər Azərbaycanda bütün sahələr üzrə çox böyük islahatlar həyata keçirildiyini, ölkənin gələcəyinin daha parlaq olacağını bildiriblər. Qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin ideyalarını, eləcə də, Onun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlarda gənclərə də xüsusi diqqət ayrılıb.

***R.HÜSEYNOVA***


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**